AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

11 OKTYABR 2018-ci il CÜMƏ AXŞAMI № 227 (6260) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## M.Ç.Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Çingiz oğlu Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## S.F.Rzayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında xidmətlərinə görə Sabir Fərzi oğlu Rzayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## Azərbaycan dəmir yolu nəqliyyatı işçilərinə fəxri adlar verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mühəndis"**

Rzayev Rizvan İlyas oğlu
Tahirov Tələbani Məhəmməd oğlu

**"Əməkdar həkim"**

Şükürov Adil Əvəz oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## Azərbaycan dəmir yolu nəqliyyatı işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Süleymanov Əlirza Məmməd oğlu
Hüseynov İqbal Əli oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Rəşad İlqar oğlu
Əliyev Emil Əliheydər oğlu
Əliyev İlqar Xeyrulla oğlu
Əliyev Mirağa Allahverdi oğlu
Əliyev Vaqif Hüseyn oğlu
Əliyev Zöhrab Qoca oğlu
Əlizadə Əli Tofiq oğlu
Əlizadə Mehman Vəkil oğlu
Hacıyev Qaməddin Abbasqulu oğlu
Hüseynov Abbas İsmət oğlu
İsgəndərov Ağayar Nəriman oğlu
Qasımov Akif Mustafa oğlu
Məmmədov Xalid Əbil oğlu
Mustafayev İlqar Abdulməcid oğlu
Nuriyev Kamran Nəriman oğlu
Rüstəmov Çingiz Xudaverdi oğlu
Rzayev Amil Əlirza oğlu
Şirməmmədov Yadigar Mübariz oğlu
Talıbov Şəmsəddin İsmayıl oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, insanların həyat və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükənin olması və ya mühüm zərərin vurulması hallarında sahibkarlıq sahəsində plandankənar (növbədənkənar) yoxlamaların təxirə salınmadan keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 87; 2015, N 8, maddə 910; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 377, N 10, maddə 1778) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1.8-ci bəndə "olunmasını," sözündən sonra "avtomatlaşdırılmış və fasiləsiz rejimdə fəaliyyətini," sözləri əlavə edilsin;

*1.2.* 4.3-1-ci bəndə "əvvəl" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

*1.3.* 4.3-2-ci bəndin birinci cümləsinə "əvvəl" sözündən, ikinci cümləsinə "ərzində" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

*1.4.* 4.4-cü bəndə "müddətində" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti yoxlayıcı orqan tərəfindən əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

*1.5.* 5.1-ci bəndin birinci cümləsində "alınması," sözü "alınması barədə yoxlayıcı orqanlara qeydiyyat aparıldığı gün (Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti yoxlayıcı orqan tərəfindən əsaslandırıldıqda isə dərhal), eləcə də yoxlamanın" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* həmin Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 10, maddə 794; 2008, N 1, maddə 9; 2011, N 3, maddə 183, N 4, maddə 273, N 5, maddə 379; 2013, N 6, maddə 653; 2014, N 7, maddə 816; 2017, N 3, maddə 375; 2018, N 2, maddə 1850) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nə aşağıdakı məzmunda 5.8-1-ci yarımbənd əlavə edilsin:

"5.8-1. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin mərkəzləşmiş statistikasının elektron formada aparılmasını təşkil edir, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin edir;".

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan statistik məlumatları Azərbaycan Respublikasının Baş Prokurorluğunun müəyyən etdiyi formaya əsasən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə mütəmadi olaraq təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mərkəzi Bankı rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi qaydasının müəyyən edilməsi üçün üç gün müddətində zəruri tədbirlər görüb bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"nı üç gün müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

5.1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nin 5.8-1-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlarla bağlı məhkəmə statistikasını Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müəyyən edilmiş formaya əsasən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə mütəmadi olaraq təqdim etsin;

5.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 oktyabr 2018-ci il.**

## Şəki "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə vahid standartlar çərçivəsində idarə olunan və vətəndaşlara keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyalar tətbiq edilməklə dövlət xidmətləri göstərilməsini təmin edən 17 mərkəz - "ASAN xidmət", "ASAN Kommunal" və "ABAD" mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərin fəaliyyətinə dövlət qurumu və digər təşkilatların üç mindək əməkdaşı, habelə 13 mindən çox könüllü gənc cəlb edilmişdir.

"ASAN Həyat" kompleksləri və "ABAD" mərkəzləri vasitəsilə, həmçinin məşğulluğun inkişafı istiqamətində tədbirlər həyata keçirilmiş, 19 milyondan çox vətəndaş müraciəti üzrə əldə edilən məmnunluq əmsalı daima yüksək səviyyədə olmuşdur.

Bu sahədə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şəki "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.1-ci yarımbəndində göstərilmiş məbləğin 19,8 milyon (on doqquz milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 oktyabr 2018-ci il.**

## Kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatların əldə edilməsinin xüsusi rejiminin müəyyən olunması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 616; 2005, N 12, maddə 1099; 2006, N 5, maddə 400, N 12, maddə 1034; 2007, N 4, maddə 323, N 12, maddə 1225; 2008, N 11, maddə 972; 2009, N 3, maddə 163, N 4, maddə 226, N 10, maddə 780; 2010, N 7, maddə 610; 2011, N 7, maddə 631; 2013, N 7, maddə 805, N 11, maddə 1324; 2014, N 4, maddə 359, N 5, maddə 477, N 9, maddə 1027, N 10, maddə 1198, N 11, maddələr 1390, 1420; 2015, N 1, maddə 12, N 12, maddə 1454; 2016, N 2 (II kitab), maddələr 261, 265, N 3, maddə 450, N 5, maddə 882, N 6, maddələr 1023, 1024, 1042, 1065, N 7, maddə 1257, N 9, maddə 1464, N 11, maddə 1838, N 12, maddə 2089; 2017, N 5, maddələr 760, 845, N 7, maddə 1344, N 8, maddə 1521) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1.1-ci bənddən "30.4-cü," sözləri çıxarılsın;

*1.2.* 1.4-cü bəndə "26.3-cü" sözlərindən sonra ", 30.4-cü" sözləri əlavə edilsin;

*1.3.* 2-ci hissənin səkkizinci abzası ləğv edilsin.

**2.** "Kommersiya və (və ya) vergi sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 oktyabr tarixli 1052 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 10, maddə 1611; 2017, N 2, maddə 166) 1-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*3.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*3.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.4-cü maddəsinə uyğun olaraq kommersiya və (və ya) vergi sirri təşkil edən məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısını iki ay müddətində təsdiq edib, həmin normativ hüquqi aktın Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 sentyabr 2018-ci il.**

# Dünyanı heyrətə gətirən 10 səs - “Turetski xoru” Heydər Əliyev Mərkəzində çıxış edib





**Oktyabrın 10-da Rusiyanın məşhur “Turetski xoru” Heydər Əliyev Mərkəzinin səhnəsində çıxış edib.**

AZƏRTAC xəbər verir ki, anşlaqla keçən konserti izləyənlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da olub.

Art qrup konsert proqramında repertuarında olan ən məşhur kompozisiyaları təqdim edib.

Nadir səsə, geniş vokal imkanlara, aktyor ustalığına və qeyri-adi xarizmaya sahib ifaçılardan ibarət “Turetski xoru” debütünü 1990-cı ildə edib. Qrupun yaradıcısı və bədii rəhbəri Rusiyanın Xalq artisti Mixail Turetskidir. Kollektivin repertuarı sərhədsizdir, qrup dünya klassikasından rokadək, pop musiqisindən operayadək, cazdan xalq mahnılarınadək müxtəlif janrlarda ifa edir.

“Turetski xoru”nun repertuarında 10-dan çox dildə kompozisiyalar yer alıb. Bu qrupu populyarlıq rekordçusu adlandıranlar da var, çünki səhnəyə 6 min dəfədən çox çıxıb, turnelər zamanı 4,5 milyon kilometr yol qət edib. Kollektiv Rusiyanın müxtəlif şəhərlərində mütəmadi konsertlər verməklə yanaşı, tez-tez Baltikyanı ölkələrdə, Almaniya, Amerika Birləşmiş Ştatları, Kanada, İsrail və Belarusda qastrollarda olur. Qrup İspaniya, Niderland, Belçika, İsveçrə, Avstraliya, Çin və Vyetnamda da çıxış edib. Təkcə bu ilin mayında musiqi marafonu çərçivəsində 10 gün ərzində 7 ölkənin müxtəlif şəhərlərində - Paris, Lyublyana, Vyana, Berlin, Təl-Əviv, Nyu-York və Minskdə konsertləri olub.

Qrupun konsert proqramları hər zaman anşlaqla keçib. 2015-ci il mayın 9-da Moskvada təqdim etdiyi “Qələbə mahnıları” adlı konsert proqramına rekord auditoriyasını - 150 min tamaşaçısını toplayıb. Kollektivin özünəməxsus xüsusiyyətlərindən biri də istənilən auditoriyanı oxuda bilmək bacarığıdır.

Fərqli dillərdə hitlər səsləndirən “Turetski xoru”nun Azərbaycan tamaşaçılarına sürprizi də oldu: qrup doğma dilimizdə Müslüm Maqomayevin məşhur “Azərbaycan” mahnısını ifa etdi.

Konsertdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva “Turetski xoru”nun kollektivi ilə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

**AZƏRTAC**








# Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bütün hərbi hissələrində şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 10-da müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Respublikası Prezidentinin ölkəmizin qida təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirlər və bu istiqamətdə normativ hüquqi aktların tələblərinə uyğun olaraq yeni inşa olunan Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının açılışında iştirak edib.



Məlumat verilib ki, ən müasir texniki avadanlıqla təchiz edilmiş laboratoriyada qida təhlükəsizliyinə nəzarət dövlət standartlarına, normativ texniki və digər rəhbəredici sənədlərin tələblərinə uyğun olaraq həyata keçirilir. Laboratoriyada Azərbaycan Ordusunun şəxsi heyəti üçün tədarük edilən bitki, heyvan və qeyri-üzvi mənşəli ərzaq məsullarının müayinəsi aparılır. Xüsusi ayrılmış otaqlarda qida məhsullarının fiziki-kimyəvi, bakterioloji, radioloji və toksikoloji müayinəsi həyata keçirilir, ərzağın tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edilir.

Məruzə olunub ki, burada çalışan şəxsi heyətin normal fəaliyyəti və rahat istirahəti üçün də ərazidə şərait yaradılıb.

Sonra müdafiə naziri Mərkəzi Əşya Bazası və Mərkəzi Ərzaq Anbarları ərazisində yeni inşa edilmiş saxlanclara da baxış keçirib.

Qeyd edək ki, bu növ bazalar cəbhəboyu zonada da fəaliyyət göstərir və müxtəlif istiqamətlərdə yerləşən hərbi hissələrin şəxsi heyətinin təminatını tam ödəyir.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyəti üçün nəzərdə tutulmuş ərzaq və əşya əmlakının etalon nümunələrinə baxıb, burada nümayiş etdirilən məhsulların, eləcə də bütün növ geyim formalarının rahatlığı, keyfiyyəti və davamlığı ilə də maraqlanaraq müvafiq göstərişlər verib.

**AZƏRTAC**





# Latviyanın xarici işlər naziri BMT Baş Məclisinin sessiyasında Azərbaycanın ərazi bütövlüyünə dair fikir bildirib

**Latviya Respublikasının xarici işlər naziri Edqars Rinkeviçs Nyu-Yorkda BMT Baş Məclisinin 73-cü sessiyasında çıxışı zamanı Azərbaycanın ərazi bütövlüyünə dair fikir bildirib. Nazir Latviyanın beynəlxalq ictimaiyyətlə birlikdə Krımın anneksiyasının tanınmaması siyasətinə sadiq qaldığını deyib, beynəlxalq hüququn normaları və ədalət bərqərar olmaqla Ukraynanın, həmçinin Avropa İttifaqının digər Şərq tərəfdaşlarının ərazi bütövlüklərinin bərpa ediləcəyinə inandığını vurğulayıb.**

Analoji münaqişələrə məruz qalmış ərazilərin adlarını sadalayan Edqars Rinkeviçs qeyd edib ki, BMT digər aidiyyəti regional iştirakçılarla birlikdə Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya və Cənubi Osetiyada uzunçəkən münaqişələrin həlli prosesinə daim cəlb olunmalı və sadiqlik göstərməlidir.

Latviya XİN-in rəhbəri çıxışında bütün ölkələrin beynəlxalq standartlardan kənar qalmadan bir-birilərinin təhlükəsizliyini təmin etməli olduqlarını deyib. “BMT-nin preventiv fəaliyyətinin əsas məqsədi davamlı inkişafın təminatı olmalıdır. Bu halda qeyri-sabitlik və münaqişələrin ilkin səbəbləri aradan qaldırılacaq. Məqsədimiz insan ləyaqətinin müdafiəsi, yoxsulluğun aradan qaldırılması, iqtisadi əməkdaşlıq və sosial inkişaf tədbirlərinin davamıdır”, - deyə Edqars Rinkeviçs vurğulayıb.

**AZƏRTAC**

*XİN:*

# Azərbaycan BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə yardım edib

**Azərbaycan Respublikası Fələstin xalqının çətin günlərində hər zaman yanında olduğunu və İslam həmrəyliyinə sadiqliyini nəzərə alaraq, hazırda ciddi maliyyə çətinlikləri ilə üzləşən Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə cari ilin oktyabr ayında 200 min ABŞ dolları məbləğində yardım edib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, 1948-ci ildə yaradılmış Agentlik Yaxın Şərq regionunda 5 milyondan çox fələstinli qaçqına təhsil, səhiyyə, fövqəladə hallarda humanitar yardım, sosial xidmətlərin göstərilməsi sahəsində fəaliyyət göstərir. Cari ildə Agentliyin büdcəsində kəskin kəsrin yaranması bu təşkilatın normal fəaliyyətinə və proqramlarının davamlılığına əhəmiyyətli dərəcədə risk yaradıb. Bununla əlaqədar olaraq, UNRA-ya dəstəyin göstərilməsi məqsədilə beynəlxalq ictimaiyyət tərəfindən müxtəlif kampaniyalar həyata keçirilir, bir sıra ölkələr tərəfindən bu təşkilata əlavə yardımın edilməsi üçün addımlar atılır.

**AZƏRTAC**

*Almaniya hökuməti:*

# Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir

**Almaniya Bundestaqının sağçı radikal AfD fraksiyası AFR hökumətinə “Almaniya-Ermənistan münasibətləri” mövzusunda kiçik sorğu göndərib. Sorğuda, həmçinin Dağlıq Qarabağla bağlı bəzi suallar yer alıb.**

AZƏRTAC Bundestaqın saytında yayılan məlumata istinadla xəbər verir ki, Almaniya hökumətinin sözügedən sorğuya cavabının girişində qeyd olunub: “AFR hökuməti xüsusi olaraq vurğulayır ki, “Almaniya-Ermənistan münasibətləri” anlayışı ilə AFR və Ermənistan Respublikası arasındakı münasibətlər başa düşülməlidir. Almaniya hökuməti Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionunu və yeddi ətraf rayonu Azərbaycanın bir hissəsi hesab edir. AFR hökuməti qondarma “Dağlıq Qarabağ Respublikası”nı tanımır. Hökumət sorğunun müvafiq bəndlərinə (Dağlıq Qarabağda insan hüquqlarının, mətbuat azadlığının, azlıqların vəziyyəti, orada yaşayan almanların sayı və s.) dair cavabında bu qeydinə istinad etməklə kifayətlənib.

Həmçinin sorğudakı “AFR hökuməti Dağlıq Qarabağın beynəlxalq hüquqi statusunu necə qiymətləndirir?” sualına hökumət “Dağlıq Qarabağ bölgəsi Azərbaycan Respublikasının ərazisinin bir hissəsidir” cavabını verib.

**AZƏRTAC**

# ABŞ-ın Qlendeyl şəhərində Merilend prospektinin bir hissəsinə “Arsax” adının verilməsi ilə bağlı etiraz kampaniyasına başlanılıb

**ABŞ Azərbaycanlıları Şəbəkəsi Kaliforniya ştatının Qlendeyl şəhərindəki Merilend prospektinin bir hissəsinin “Arsax” adlandırılmasına etiraz olaraq Birləşmiş Ştatlarda məktub kampaniyasına başlayıb.**

Xatırladaq ki, oktyabrın 2-də Qlendeyl Şəhər Şurası Uilson prospekti ilə Harvard küçəsi arasında yerləşən Merilend prospektinin bir hissəsinin adını dəyişdirərək ona “Arsax prospekti” adı verib. Erməni mənşəli rəsmilərin çoxluq təşkil etdiyi Şəhər Şurası bu qərarı şəhərin erməni icmasının mövcudluğunu əks etdirməsi ilə əsaslandırıb. Advermə mərasimində Qlendeyl Şəhər Şurasının üzvləri, şəhərin meri Zareh Sinanyan və Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış oyuncaq rejimin nümayəndəsi Robert Avetisyan iştirak ediblər.

Kaliforniya ştatının qubernatoru Cerri Braun, Los-Anceles şəhərinin meri Erik Qarsetti və yerli media qurumlarına ünvanlanan etiraz məktubunda deyilir ki, Arsax Azərbaycanın Ermənistan qoşunları tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin alternativ adıdır. İşğal edilmiş Dağlıq Qarabağ və 7 ətraf rayon Azərbaycan Respublikasının ərazisinin təxminən 20 faizini təşkil edir.

Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü əmlakın və tarixi abidələrin sistemli şəkildə məhv edilməsi, etnik təmizləmələr kampaniyası ilə müşayiət olunub. Məsələn, təkcə Azərbaycanın Xocalı şəhərində bir gecə ərzində 613 dinc sakin öldürülüb. Ermənistan Qarabağ bölgəsini işğal etdikdən sonra bu ərazilərdə beynəlxalq hüququn normalarını pozaraq təcavüzünün nəticələrini möhkəmlətmək üçün oyuncaq rejim qurub. 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrində BMT Təhlükəsizlik Şurası erməni təcavüzünü qınayaraq Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin evlərinə qayıtmasına şərait yaradılmasını tələb edib. Ermənistan hələ də bu qətnamələrin tələblərini icra etməyib. ABŞ hökuməti işğal altında olan Dağlıq Qarabağın müstəqilliyini tanımır və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini dəfələrlə qeyd edib.

Məktub müəllifləri vurğulayırlar ki, yerli idarəetmə orqanları ABŞ-ın rəsmi siyasətinə uyğun olaraq yer adlarının dəyişdirilməsinə diqqət yetirməlidir və Amerika vergiödəyiciləri hansısa etnik lobbi qruplarının layihələrinə görə məsuliyyət daşımamalıdır.



Qeyd edək ki, Los-Anceles dairəsində yerləşən Qlendeyl şəhəri ABŞ-da erməni icmasının çoxluq təşkil etdiyi əsas şəhərdir. Burada meriya və digər idarəetmə orqanlarının əksəriyyətində erməni icmasının üzvləri çalışırlar. Bəzi media qurumları səhvən Merilend prospektinin bütövlükdə adının dəyişdirilməsini bildiriblər. Əslində, “Arsax” adı Merilend prospektinin yalnız iki kvartalını əhatə edən hissəsinə verilib.

**AZƏRTAC**

*Corc Kent:*

## ABŞ Azərbaycan ilə ikitərəfli münasibətləri davamlı şəkildə inkişaf etdirir



**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kent ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə C.Kent Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu məmnunluqla qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlıq gündəliyinin siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrində uğurlu inkişafından məmnunluq ifadə edilib və ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi üçün səylərin artırılmasının vacibliyi vurğulanıb.

Nazir Elmar Məmmədyarov Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm enerji və nəqliyyat layihələri, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Cənub Qaz Dəhlizi layihələrindən bəhs edib və bu layihələrin reallaşdırılmasında ABŞ-ın dəstəyinin təqdir olunduğunu vurğulayıb.

Elmar Məmmədyarov, həmçinin Azərbaycanın NATO ilə tərəfdaşlığına toxunub, ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiq olduğunu bildirib.

Corc Kent qeyd edib ki, ABŞ energetika, təhlükəsizlik, iqtisadi və digər sahələrdə Azərbaycan ilə ikitərəfli münasibətləri davamlı şəkildə inkişaf etdirir. O, ölkəmizin terrorizmə qarşı mübarizə çərçivəsində Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəsinin yüksək qiymətləndirdiyini xüsusilə qeyd edib.

Nazir Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların son vəziyyəti və ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Nyu-Yorkda Ermənistan xarici işlər naziri ilə keçirdiyi görüş barədə danışaraq vurğulayıb ki, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulması cəhdləri qəbuledilməzdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Corc Kent:*

## Azərbaycan regionda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan ölkədir

**Oktyabrın 10-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kent ölkəsinin Azərbaycandakı səfirliyində səfərinin yekunlarına dair mətbuat konfransı keçirib.**

AZƏRTAC xəbər verir ki, Corc Kent Azərbaycanda bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini, görüşlərdə ABŞ-Azərbaycan münasibətlərinə və Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına dair müzakirələrin aparıldığını bildirib.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-Yorkdakı görüşünü və Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Düşənbədəki söhbətini xatırladan C.Kent bu cür təmasların önəmli olduğunu qeyd edib.



Azərbaycanın münaqişənin sülh yolu ilə nizamlanmasında maraqlı olduğunu söyləyən Corc Kent bildirib ki, ABŞ ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, münaqişənin Madrid prinsipləri əsasında nizamlanması üzrə öhdəliklərinə ciddi yanaşır.

O, Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının prinsiplərinə əsaslanan dinc həllinin vacibliyini vurğulayaraq qeyd edib ki, ölkəsi ATƏT-in Minsk qrupunun həmsədrlərinin münaqişə zonasında gərginliyin azaldılması və problemin dinc yolla həllinin əldə olunması istiqamətindəki səylərini alqışlayır. Onun sözlərinə görə, ATƏT-in Minsk qrupu həmsədrlərinin oktyabr ayının sonuna regiona səfəri gözlənilir.

C.Kent Azərbaycan-ABŞ münasibətlərindən danışaraq, Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsini xüsusi qeyd edib. ABŞ-ın Azərbaycan ilə münasibətlərin daha da inkişafında maraqlı olduğunu söyləyən C.Kent bildirib ki, Azərbaycan regionda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan ölkədir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən qlobal layihələrə toxunan qonaq bildirib ki, "Cənub Qaz Dəhlizi" kimi layihələr dünyada enerji təhlükəsizliyinə mühüm töhfə verir.

**AZƏRTAC**

## Astanada dünya və ənənəvi dini liderlərin VI Qurultayı keçirilir

**Oktyabrın 10-da Astanada dünya və ənənəvi dini liderlərin VI Qurultayı işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin, Serbiya Prezidenti Aleksandr Vuçiçin, dini liderlərin, beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli siyasi, elmi və ictimai xadimlərin iştirak etdiyi qurultayda Azərbaycanı MDB Dinlərarası Şurasının həmsədri və MDB müsəlmanları Məşvərət Şurasının sədri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti təmsil edir.

Qurultayda çıxış edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirib ki, 2003-cü ildən keçirilməyə başlayan dünya və ənənəvi dini liderlərin Qurultayı 15 il ərzində müxtəlif dinlər arasında münasibətlərin formalaşmasında mühüm rol oynayıb. Bu qurultayı keçirməklə Qazaxıstan dünya ictimaiyyətinə ümummilli konsensus və cəmiyyətin konsolidasiyasına bir nümunə nümayiş etdirir. Prezident çıxışında dünya dini liderlərini sülh və təhlükəsizlik uğrunda birgə mübarizə aparmağa çağırıb.

Nursultan Nazarbayev deyib: "Ətraf mühitin çirklənməsi, dinlərarası ziddiyyətlər, müharibələr, sanksiyalar bizim hər birimizi narahat edir. Sivilizasiyalararası münaqişələr elmi və texnoloji tərəqqi prosesinin fonunda absurd görünür". Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Qurultayın informasiya portalının yaradılmasını da təklif edib. Qeyd edib ki, bu portalın məqsədi dini radikalizmə qarşı müqavimətin gücləndirilməsi metodlarının öyrənilməsinə və tətbiq olunmasına kömək etmək olacaq.

Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayev dünya dinlərinin nümayəndələrinin müasir dövrün ən kəskin problemlərini müzakirə etmək üçün Qazaxıstanda toplaşdığını bildirərək deyib ki, Suriya münaqişəsi, kütləvi qətllər, ibadətgahların, dini abidələrin dağıdılması qlobal sabitliyə və təhlükəsizliyə ciddi təhdiddir.

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç çıxışında terrorizm, ekstremizm və radikalizmlə birgə mübarizənin önəmindən bəhs edib.

Qurultayda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, qurultayın keçirilməsində məqsəd dini liderlərin siyasi və ictimai xadimlərlə birgə dünyada baş verən hadisələrə münasibət bildirməsidir. Bu gün dünyada baş verən hadisələr göstərir ki, hazırda dindən başqa məqsədlər üçün istifadə edirlər. Bəzi qüvvələr tərəfindən məqsədyönlü şəkildə İslam və qeyri-İslam dünyasının qarşı-qarşıya qoyulduğunu söyləyən QMİ sədri deyib ki, müasir dünyamızda "Allahu Əkbər!" nidası ilə müsəlmanların başı kəsilir, uşaq və yeniyetmələrə qoca və qadınlara rəhm olunmur.

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunduğunu qeyd edərək bildirib ki, bu, beynəlxalq müstəvidə ksenofobiyanın, islamofobiyanın aradan qaldırılması işinə güclü təkan verib.

Azərbaycanda multikulturalizm siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu deyən QMİ sədri bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini, bu sahədə mühüm addımların atıldığını diqqətə çatdırıb.

Allahşükür Paşazadə Cənubi Qafqaz regionunda sabitliyə və tərəqqiyə böyük əngəl olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub, problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyini bildirib.

Azərbaycanın tolerant ölkə olduğunu, milli mənəvi və dini dəyərlərə ölkəmizdə çox böyük önəm verildiyini bildirən QMİ sədri Azərbaycan ilə Qazaxıstan arasında dinlərarası əməkdaşlığın da genişləndirildiyini vurğulayıb.

Qurultayda digər çıxış edənlər də təhlükəsiz dünya uğrunda mübarizənin aparılması ilə bağlı çağırışlar ediblər.

Sonra dünya və ənənəvi dini liderlərin Qurultayının ilk mükafatlarının təqdim edilməsi mərasimi olub.

Dinlərarası dialoqa verdikləri töhfələrə görə bir sıra dini liderlərə medallar verilib. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə "Şapaqat" medalı ilə təltif olunub.

Qurultayda 46 ölkədən 82 nümayəndə iştirak edib ki, bu da qurultaya artan diqqətin göstəricisidir.

"Dini liderlər təhlükəsiz dünya uğrunda" mövzusunda təşkil olunan Qurultay çərçivəsində oktyabrın 11-də "Manifest" Sülh. XXI əsr: qlobal təhlükəsizliyin konsepsiyası", "Geosiyasətdə dəyişən dinlər: bəşəriyyətin birləşməsi üçün yeni imkanlar", "Din və qloballaşma: çağırışlar və cavablar", "Dini liderlər və siyasətçilər: ekstremizmin və terrorizmin aradan qaldırılması" kimi tematik istiqamətlərdə plenar iclaslar keçiriləcək.

Qurultay çərçivəsində "Sülh və həmrəylik" muzeyinin açılışı olub. Dini liderlərin nümayəndələri muzeyə xatirə hədiyyələri təqdim ediblər. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalçasını muzeyə hədiyyə edib.

**AZƏRTAC**

## Belarus Vəkillər Kollegiyasının sədri ilə Ədliyyə Nazirliyində görüş olub

**Ədliyyə nazirinin müavini Toğrul Musayev Azərbaycanda səfərdə olan Belarus Respublikası Vəkillər Kollegiyasının sədri, ölkə parlamentinin üzvü Viktor Çayçits ilə görüşüb.**



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlətlərimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini vurğulayan nazir müavini bu əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun xüsusi rolunu vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin beynəlxalq hüquq çərçivəsində həllində Belarus dövlətinin hər zaman ədalətli və prinsipial mövqe nümayiş etdirdiyini bildirib.

Həmçinin ötən il ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair yeni sazişin imzalanmasının, yüksək səviyyədə səfərlərin və nümayəndə heyətlərinin mübadiləsinin hüquqi sahədə qarşılıqlı fəaliyyətə mühüm töhfə verdiyi vurğulanıb, vəkillik təsisatının islahatından bəhs edilib, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı dövlətimizin başçısının 2018-ci il 22 fevral tarixli Sərəncamının xüsusi əhəmiyyəti qeyd olunub.

Azərbaycana səfərindən məmnunluğunu bildirən qonaq xalqlarımız arasında əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb, vətəndaşların hüquqlarının qorunmasına xidmət edən Vəkillər kollegiyaları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib. V.Çayçits vəkillik institutunun inkişafı üzrə görülən tədbirlərə maraq göstərərək bu sahədə Azərbaycan təcrübəsindən istifadə etmək barədə niyyətini ifadə edib.

Görüşdə səfər zamanı iki qurum arasında sənədin imzalanmasının qarşılıqlı fəaliyyətin inkişafına təkan verəcəyi bildirilib, vəkilliyin inkişafı, vəkillərin seçim proseduru və Ədliyyə Akademiyasında təlimi, əhaliyə keyfiyyətli hüquqi yardımın göstərilməsi ilə bağlı faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov iştirak edib.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd edilən Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olublar.

**AZƏRTAC**

## Statistika Komitəsi ilə Ümumdünya Səhiyyə Təşkilatının əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

**Dövlət Statistika Komitəsi ilə Ümumdünya Səhiyyə Təşkilatının əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib.**



Komitədən AZƏRTAC-a bildirilib ki, oktyabrın 10-da Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri xanım Fatoş Hande Harmancı ilə görüşüb. Tahir Budaqov onu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Nümayəndəliyinin rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, ölkəmizdəki xidməti fəaliyyətində uğurlar və müvəffəqiyyətlər arzulayıb.

Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmizdə mütərəqqi islahatlar aparılır, yüksək iqtisadi göstəricilərin əldə olunması ilə yanaşı, həm də qlobal transmilli enerji və nəqliyyat-kommunikasiya layihələri reallaşdırılır, balanslaşdırılmış uğurlu daxili və xarici siyasət həyata keçirilir.

Tahir Budaqov Dövlət Statistika Komitəsinin son illər ərzində həyata keçirdiyi layihələr, milli statistika sisteminin təkmilləşdirilməsi ilə bağlı əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib, beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq məsələlərini və statistika sistemində qazanılan uğurları diqqətə çatdırıb.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Fatoş Hande Harmancı isə öz növbəsində səmimi görüşə və təbrikə görə məmnunluğunu ifadə edib, ölkəmizdəki fəaliyyəti dövründə Dövlət Statistika Komitəsi ilə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Dövlət Statistika Komitəsi ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında gələcək əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Səməd Seyidov:*

## Səkkiz üzv ölkəsi bir-biri ilə müharibə aparan təşkilatın hansı gələcəyi ola bilər?

**Bu müzakirələrin təkcə Avropa Şurasının gələcəyi deyil, eyni zamanda, üzləşdiyimiz böhrandan çıxışa dair müzakirələr olması ilə bağlı həmkarlarımın fikrini bölüşürəm. Biz indiki vəziyyəti bilərək təhlil etməli və hansı istiqamətdə gedəcəyimizi müəyyənləşdirməliyik. Çox vaxt prosedurların dəyişməsi və maliyyə böhranının həllinin bu vəziyyətdən çıxmaq imkanı olması ilə bağlı fikirlər eşidirik.**

Bu sözləri AŞPA-nın payız sessiyası çərçivəsində "Avropa Şurasının gələcəyi" mövzusuna həsr edilmiş müzakirələrdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

Səməd Seyidov qeyd edib ki, Şuranın gələcəyi deyəndə təkcə prosedurlar və maliyyə səbəblərini deyil, eyni zamanda, dəyərləri və münasibətləri düşünməliyik. Məncə üzləşdiyimiz böhran bu son iki amildən irəli gəlir.

"Üzvü olduğumuz bu təşkilata nəzər saldıqda onun 8 üzv ölkəsinin bir-biri ilə müharibədə olduğunu görürük. Belə bir təşkilatın gələcəyini təsəvvür edə bilərsinizmi? Üzvləri bir-biri ilə mübarizə aparan bu təşkilatın gələcəyini necə təsəvvür etmək olar? Bu, çox çətin vəziyyətdir. Təsəvvür edə bilərsinizmi ki, 14 üzvü daim ciddi monitorinq altında olan və digər üzvləri "köhnə demokratiya" adı altında fərqli davranışa malik olan təşkilatın hansı gələcəyi ola bilər?", - deyə S.Seyidov bildirib.

Nümayəndə heyətinin rəhbəri deyib ki, gələcək haqqında düşünmək üçün dərhal yeni komitə və ya xüsusi ad hoc qrup yaradılmalıdır. Bu böhrandan necə çıxmağa, bütün 47 üzv dövlət üçün qəbul edilə bilən ideyalara baxılmalıdır. Yalnız bu yolla üzvlər bir yerdə ola bilər. Əks təqdirdə, bu təşkilatın gələcəyi böyük sual altında olacaq.

"Ancaq ümid edirəm ki, gələcəyimizi müəyyən etməyə qadirik. Malik olduğumuz çox məhdud vaxt bizə bir-birimizi başa düşməyə, dinləməyə, bir-birimizə qarşılıqlı hörmət etməyə imkan verəcək və gələcəyimizi təmin edə biləcəyik", - deyə S.Seyidov diqqətə çatdırıb.

**AZƏRTAC**

## Ən yaxşı startap komandası olan ali təhsil müəssisələri müəyyənləşib

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, "Microsoft" və "Azercell" şirkəti ilə birgə həyata keçirdiyi "İdeyadan Biznesə" layihəsi çərçivəsində Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye universitetlərində startap turları təşkil edilərək hər bir təhsil müəssisəsi üzrə qaliblər müəyyən olunmuşdu.**




Oktyabrın 8-də "İdeyadan Biznesə" layihəsi çərçivəsində Bakı ali təhsil müəssisələrinin tələbələrindən ibarət komandaların startap layihələri yarışıb.

Yarışda Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye universitetlərinin tələbələri iştirak ediblər.

Tələbələrdən ibarət 15 komandanın hər biri 3 dəqiqə ərzində öz layihəsini münsiflər heyəti qarşısında təqdim edib. Münsiflər layihələri "İdeya", "İnnovasiyalar", "Texnologiyalar" və "Mümkünlük" kriteriləri üzrə qiymətləndiriblər.

Layihələrin təqdimatından sonra ən yaxşı startap komandası olan ali təhsil müəssisələrinin adları bəlli olub. Belə ki, Bakı Mühəndislik Universiteti I yer, ADA Universiteti II yer, Azərbaycan Texniki Universiteti isə III yeri tutub.

Ümumilikdə, ali məktəblər üzrə 8 startapçı - "Gonex" layihəsi ilə Adil Qafarlı, "Guide to" layihəsi ilə İlkin Quluzadə, "Just" layihəsi ilə Əli Babayev, "Yoldaş" layihəsi ilə Rüstəm Həsənli, "Xilaskar Braslet" layihəsi ilə Nərgiz Əliyeva, "Smart home" layihəsi ilə İsmayıl Həsənov, "Eagle 2.0" layihəsi ilə Ayxan Qurbanov, "Mayak" layihəsi ilə Aytac Əsgərova startap turlarının qaliblərinin yarışacağı Milli Finala dəvət olunub. Qeyd edək ki, Milli Final 26-30 oktyabr tarixlərində ilk dəfə olaraq Bakıda təşkil olunan "İnnovasiyalar həftəsi" çərçivəsində keçiriləcək.

**M.MİRZƏ,**
**"Respublika".**

# Bakıda “Avrasiya” Koordinasiya Şurasının iclası keçirilmişdir




**Azərbaycanın paytaxtı MDB ölkələrinin milli aeronaviqasiya xidməti provayderlərini birləşdirən “Avrasiya” Koordinasiya Şurasının 35-ci müşavirəsinə ev sahibliyi etmişdir.**

Müşavirədə 15 ölkədən 90 iştirakçı, o cümlədən MDB ölkələri - Azərbaycan, Rusiya, Qazaxıstan, Belarus, Qırğızıstan, Tacikistan, Özbəkistanın milli aeronaviqasiya xidməti provayderlərinin baş direktorları, həmçinin İCAO, Dövlətlərarası Aviasiya Komitəsi, İATA və digər beynəlxalq aviasiya təşkilatlarının nümayəndələri iştirak etmişlər.

Oktyabrın 10-da AZAL prezidenti Cahangir Əsgərov müşavirəni giriş sözü ilə açmışdır. Daha sonra müşavirə “Azəraeronaviqasiya” Hava Hərəkəti İdarəsinin direktoru Fərxan Quliyev və “Avrasiya” Koordinasiya Şurasının Sədri - “Hava Hərəkətinin Təşkili üzrə Dövlət Korporasiyası” FUDM-nin baş direktoru İqor Moiseenkonun çıxışları ilə davam etmişdir.



Hava daşınmalarına artan tələbatı və Avrasiya ölkələrinin strateji geosiyasi mövqeyini nəzərə alaraq, aeronaviqasiya təminatının harmonizasiyası və bu ölkələr arasında hava məkanının təşkilinin uzunmüddətli birgə planlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Müşavirə zamanı “Avrasiya” üzv dövlətlərinin milli aeronaviqasiya xidməti provayderlərinin nümayəndələrinin MDB dövlətlərinin aeronaviqasiya sistemlərinin vəziyyəti, inkişaf planları barədə məruzələri dinlənilmişdir.

Eyni zamanda müşavirədə əsas diqqət pilotsuz uçuş aparatlarının uçuşları və onların uçuş təhlükəsizliyinə təsiri, azad marşrutların hava məkanı və “Avrasiya” regionunda tətbiqi perspektivləri, Avropa hava məkanının müasirləşdirilməsi və hava məkanı sahəsində milli strategiyalar, mülki aviasiyaya dair sazişin iştirakçısı olan dövlətlərin mülki aviasiya sahəsində uçuşlarının təhlükəsizlik vəziyyəti və Avrasiya” şurasının üzv dövlətlərinin milli hava hərəkətinin təşkili sistemlərinin harmonizasiyası kimi məsələlərə yönəldilmişdir. İclasda həm də İCAO, İATA və Dövlətlərarası Aviasiya Komitəsi kimi beynəlxalq təşkilatların nümayəndələri də məruzələrlə çıxış etmişlər.

Qeyd edək ki, “Avrasiya” Koordinasiya Şurası 1999-ci ildə yaradılmışdır. Onun təsisçiləri “Hava Hərəkətinin Təşkili üzrə Dövlət Korporasiyası” FUDM (Rusiya), “Kazaeronaviqasiya” RDM (Qazaxıstan), “Azəraeronaviqasiya” (Azərbaycan), “Belaeronaviqasiya” DM (Belarus), “Kırqızaeronaviasiya” DM (Qırğızıstan), “Tadjikaeronaviasiya” DUM (Tacikistan) və “Uzaeronaviqasiya” Mərkəzidir (Özbəkistan) .

**“Azərbaycan Hava Yolları” QSC-nin mətbuat xidməti.**

# Şərqşünaslıq İnstitutunun kollektivi görkəmli alim Aida İmanquliyevanın məzarını ziyarət edib

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi oktyabrın 10-da görkəmli şərqşünas, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 79-cu ildönümündə alimin məzarını ziyarət edib.**



Şərqşünaslıq İnstitutundan AZƏRTAC-a bildirilib ki, direktor, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva çıxışında Aida İmanquliyevanın həm bir alim kimi dünya şərqşünaslıq elminə dəyərli töhfələrini, həm də bir qadın və bir ana kimi Azərbaycan qadınına örnək ömür yaşadığını qeyd edib.

Bildirib ki, Aida İmanquliyeva öz fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirib və inkişaf etdirib. Onun bir alim kimi maraq dairəsi geniş və çoxşaxəli olub, lakin elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatıdır. “Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi”, - deyə Gövhər Baxşəliyeva bildirib.

Görkəmli alimin elmi və təşkilati fəaliyyətindən danışan Gövhər Baxşəliyeva Aida xanımın elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçdiyini, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək yüksəldiyini qeyd edib.

G.Baxşəliyeva A.İmanquliyevanın Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini, elmi tədqiqat işlərinin miqyasının genişləndirilməsi, nəzəri səviyyəsinin, əməli əhəmiyyətinin yüksəldilməsi, beynəlxalq əlaqələrin dərinləşdirilməsi sahəsində xeyli iş gördüyünü vurğulayıb.

Xatırladıb ki, görkəmli alim Azərbaycan şərqşünaslıq elmini dəfələrlə yaxın və uzaq xarici ölkələrdə yüksək səviyyədə təmsil edib. Aida İmanquliyeva, həmçinin yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasını diqqət mərkəzində saxlayıb, onun rəhbərliyi ilə qısa müddətdə bir çox namizədlik dissertasiyaları müdafiə edilib.

Bu gün də Aida İmanquliyevanın əsərlərinin dönə-dönə oxunduğunu, təhlil və tədqiq edildiyini, tərcümə və nəşr olunduğunu deyən Gövhər Baxşəliyeva, görkəmli alimin həyatdan erkən getməsinin onun həmkarlarını və tələbələrini hədsiz kədərləndirdiyini və sarsıtdığını bildirib, əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağını deyib.

Şərqşünaslıq İnstitutunun ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Fərda Əsədov Aida İmanquliyevanın ərəb ədəbiyyatşünaslığında bir məktəb yaratmış alim olduğunu, onun açdığı elmi cığırların bu gün də davam etdirildiyini deyib. Fərda Əsədov görkəmli şərqşünas alimin əsərlərinin ərəb aləmində geniş yayıldığını, bu əsərlərdə onun öz dövrünü bir neçə onillik qabaqlayaraq, Şərqlə Qərb arasında qarşılıqlı təsiri gözəl əks etdirdiyini vurğulayıb.

**AZƏRTAC**

*GƏNCƏ:*

# VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ HƏSSASLIQLA YANAŞILIR

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun şəhər sakinləri ilə görüşləri, səyyar qəbulları, işgüzar söhbətləri, bir sıra layihələrin müzakirələri çox səmimi keçməklə vətəndaşları razı salır, hər kəsdə mənəvi rahatlıq yaradır.**





Şəhər rəhbərinin Gülüstan qəsəbəsində vətəndaşlarla növbəti görüşü də məmnunluq, razılıq, sevinc və fərəh dolu məqamlarla yadda qaldı. “Açıq mikrofon” şəraitində keçən görüşdə 60-dan artıq sakinin şikayət və təklifi dinlənildi. Çoxmərtəbəli binaların dam örtüklərinin yenilənməsi və fasadlarının təmiri, uşaqların asudə vaxtının səmərəli təşkili üçün binaların həyətlərində oyun meydançalarının yaradılması, ara küçələrin asfaltlanması kimi məsələlər müraciətlərin əsasını təşkil edirdi. Bunumla yanaşı, işlə təminat, torpaq sahələrinin verilməsi üçün sakinlərin növbəyə götürülməsi kimi məsələlər də gündəmə gətirildi. Sakinlərə məlumat verildi ki, çoxmərtəbəli binaların tam örtüklərinin dəyişdirilməsi diqqətdə saxlanılan əsas məsələlərdəndir. Eyni zamanda, Gəncənin əsas və ara küçələrinin asfaltlanması da mərhələli şəkildə həyata keçiriləcəkdir. Artıq bu işə başlanılmışdır. Görüşdə səsləndirilən bir çox problemlər yerindəcə öz həllini tapdı. Bir sıra müraciətlər isə araşdırılması üçün qeydiyyata alındı.

* * *

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla keçirilən növbəti qəbulda 30-a yaxın vətəndaşın fərdi qaydada şikayət və təklifləri dinlənildi. Küçələrin gecə işıqlandırılması, çoxmərtəbəli binaların dam örtüklərinin yenilənməsi, yeni salınan qəsəbələrin qazlaşdırılması kimi məsələlər ortaya çıxarıldı.

Eyni zamanda, şəhərdə hazırda 360-a yaxın çoxmərtəbəli binanın dam örtüyünün dəyişdirilməsinə ehtiyac olduğu bildirildi. Şəhərin əsas yollarının asfalt örtüyünün yenilənməsi və həmin ərazilərdə yeni işıq dirəklərinin quraşdırılmasına isə artıq başlanılmışdır.

Qəbulda bildirildi ki, Gəncədə yeni qəsəbələrin yaranması ilə əlaqədar olaraq, qazlaşdırılma işlərinə növbəti ildən başlanılması planlaşdırılır. Qəbulda işlə təminat, torpaq sahəsinin verilməsi və sair məsələlərlə bağlı müraciətlərin bir çoxu yerindəcə öz həllini tapdı.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Gənclər ordu sıralarına yollanır



Oktyabrın 1-dən ölkəmizdə gənclərin həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. Hər yerdə olduğu kimi, Füzuli rayonunda da gənclər coşqu, ruh yüksəkliyi ilə əsgəri xidmətə yola düşür, əmək və müharibə veteranları, valideynlərinin, xeyir-duası ilə Vətənə sipər oğullar hərbi xidmətə yola salınır.

Orduya yola salınan gənclər əminliklə bildirirlər ki, onlar qulluq dövründə Vətənimizin ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini ləyaqətlə qoruyacaq, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümayiş etdirəcəklər.

Biz gənclərin ordu sıralarına yolasalınma mərasimində iştirak edərkən günəşli bir payız səhəri idi. Dalğa-dalğa ətrafa yayılan milli musiqimiz, gənclərin dalğalandırdıqları üçrəngli bayrağımız, zövqlə hazırlanmış plakat və şüarlar hamıda xoş ovqat yaradırdı.

Gənclərin hərbi xidmətə yolasalınma mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Füzuli rayon idarəsinin rəisi, polkovnik-leytenant Vüqar Hacıyev çıxış edərək dedi:

—Son illər ölkəmizdə ordunun maddi-texniki bazasının möhkəmləndirilməsində böyük işlər görülmüş, çoxlu texnika, avadanlıq, müasir silahlar alınmış, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Bu proses uğurla davam etdirilir. Müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Qüdrətli Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Qürur hissi ilə vurğulamaq lazımdır ki, ordumuzun peşəkarlığı artır, eyni zamanda, maddi-texniki bazası da möhkəmlənir. Bu gün Azərbaycan ordusu çox böyük imkanlara malikdir. Son illər ərzində ordumuzun gücləndirilməsi üçün çox böyük işlər görülmüşdür. Hərbi xərclərimiz ildən-ilə artır.

Ordumuz 2016-cı ilin aprel döyüşlərində öz gücünü, qüdrətini bir daha nümayiş etdirdi. Hərbçilərimiz düşmənə sarsıdıcı zərbələr endirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu ilə bağlı dediyi bu sözləri xatırlamaq yerinə düşərdi:

**“Azərbaycanda ordu quruculuğu prosesi sürətlə və uğurla gedir. Azərbaycanda nizami ordunun yaranması prosesi ölkəmizə böyük faydalar gətiribdir. Biz öz hərbi potensialımızı gücləndiririk və inanıram ki, bu proses gələcəkdə daha da sürətlənəcəkdir. Bu gün ordumuzun həm hazırlığı, həm də maddi-texniki bazasının genişləndirilməsi prosesləri təqdirəlayiqdir...”.**

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində Yusif Yusifli valideynlər adından çıxış edərək vurğuladı ki, bu gün Azərbaycan, sözün əsl mənasında, bölgədə ən yüksək mövqelərə malik bir ölkədir. Əlbəttə, bunu şərtləndirən müxtəlif amillər var. O cümlədən, iqtisadi potensial və ordunun güclü olması. Bu tarixi yaxşı bilirik və uğur qazanmış ölkələrin təcrübəsini də öyrənirik. Güclü ordu, güclü dövlət deməkdir. Ölkəmizdə güclü ordunun yaradılmasına maksimum səy göstərilir. Xalqımız əmindir ki, çox tezliklə erməni tapdağında olan ərazilərimiz azad olunacaq, qədim Oğuz ellərində üçrəngli Azərbaycan bayrağı dalğalanacaqdır.

Bu gün ailəmiz üçün ən gözəl bir gündür. Oğlum Yusif əsgəri xidmətə yola düşür. O, Vətənimizin ərazi bütövlüyünün qorunmasında var qüvvəsini əsirgəməyəcək, Bayrağına, Himninə, Gerbinə, Andına sədaqətli olacaqdır.

Vaxt çatır, gənclərdən Nemət Quliyev, İxtiyar İbrahimli, Valeh Bayramov və başqaları avtobusda öz yerlərini tutub, fərəhlə yüksək əhval-ruhiyyə ilə ordu sıralarına yola düşürlər.

**Qədir ASLAN,**
**“Respublika”.**

# Xalq Cümhuriyyətinin həmyaşıdı: Azərbaycan ədliyyəsi

**2018-ci il mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam oldu. Dövlətçilik tariximizin parlaq səhifələrindən olan AXC dövründə müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə qayda-qanunun bərpası və dövlət quruculuğu istiqamətində mühüm tədbirlər görülmüşdür. Eyni zamanda, hüquq sisteminin inkişafına da böyük önəm verilərək Cümhuriyyətin yaranması ilə eyni gündə Ədliyyə Nazirliyi təsis edilmişdir.**

Hər bir demokratik cəmiyyətdə müstəsna əhəmiyyət kəsb edən ədliyyə sisteminin inkişafı ilə bağlı o dövrdə çox mühüm qərarlar qəbul olunmuş, 1918-ci il noyabrın 22-də Cümhuriyyət Hökumətinin qərarı ilə Ədliyyə Nazirliyinin ilk Əsasnaməsi təsdiq edilmişdir.

Bu tarixi faktı nəzərə alan ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə noyabrın 22-si ədliyyə işçilərinin peşə bayramı günü elan edilmişdir.

Ölkə Prezidenti İlham Əliyevin “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etdiyi 2018-ci il həm də Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdardır.

Şanlı və keşməkeşli tarixi yol qət edən Azərbaycan ədliyyəsi fəaliyyətə başladığı ilk gündən ölkənin hüquq sisteminin inkişafına mühüm töhfələr vermiş, Cümhuriyyət dövründə nazirlik dağınıq və pərakəndə vəziyyətində olan ədliyyə və məhkəmə orqanlarının işinin səmərəli təşkili ilə bağlı məqsədyönlü addımlar atmış, qısa müddətdə onların fəaliyyətini bərpa etmiş, bir sıra dövlət əhəmiyyətli, o cümlədən ədliyyə və məhkəmə fəaliyyəti ilə bağlı qanun layihələrini hazırlayaraq Cümhuriyyət Parlamentinin müzakirəsinə çıxarmış və onlar qəbul edilmişdir.

O dövrdə, həmçinin ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi məqsədilə həbsxana işi Ədliyyə Nazirliyinə verilmiş, dustaqların saxlanma şəraitinin və təminatlarının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülmüş, nazirliyin Parlamentə təqdim etdiyi qanun layihələrindən biri kimi məhz Cümhuriyyətin yaranmasından il yarım keçməsi münasibətilə amnistiya elan edilmişdir.

Ümumilikdə, Azərbaycan ədliyyəsinin şərəfli dövrü olan həmin illərdə şəraitin çətinliyinə, imkanların məhdudluğu və kadr çatışmazlığına baxmayaraq, nazirlik öz üzərinə düşən vəzifələrin icra edilməsi, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür.

Sovet hakimiyyətinin ilk dövrlərində məhdud səlahiyyətlər çərçivəsində fəaliyyət göstərən, hətta bir neçə dəfə ləğv edilərək yenidən yaradılan Ədliyyə Nazirliyinin təkmil bir struktura çevrilməsi yalnız ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi dövründə - 1970-1980-ci illərdə mümkün olmuş, ədliyyə fəaliyyəti xeyli təkmilləşərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Cümhuriyyətimizin varisi olan müasir müstəqil Azərbaycanda ümummilli lider tərəfindən həyata keçirilən mütərəqqi hüquq islahatları nəticəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu və nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Eyni zamanda, Azərbaycanın ilk milli Konstitusiyasında demokratiyanın təzahürü olan bələdiyyələrin yaradılmasının təsbit edilməsi ilə əlaqədar 1999-cu ildə keçirilmiş bələdiyyə seçkiləri nəticəsində yerli özünüidarəetmə orqanları formalaşmışdır. Ölkədə ən gənc təsisat olan bu orqanların üzvləri tərəfindən bələdiyyələr haqqında qanunvericiliyin öyrənilməsinə, onların fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərilməsi məqsədilə ölkə Prezidentinin 2000-ci il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi yaradılmışdır. Qısa müddətdən sonra Mərkəzin Əsasnaməsi təsdiq edilərək funksiya və vəzifələri müəyyən edilmiş, nazirlik tərəfindən bələdiyyələrin fəaliyyətinin səmərəli təşkilinə, onların ölkənin tərəqqisində, o cümlədən əhalinin sosial məsələlərinin həllində rolunun artırılmasına köməklik göstərilmişdir.

Prezident İlham Əliyevin 2003-cü ildə ölkə başçısı seçilməsindən sonra Azərbaycan ədliyyəsi inkişaf mərhələsini davam etdirmiş, 2006-cı ildə Ədliyyə Nazirliyi haqqında yeni Əsasnamə qəbul olunaraq ona hüquq-mühafizə orqanı statusu verilmiş, Ədliyyə orqanlarında qulluq keçmə haqqında Qanun qəbul olunmuş, Ədliyyə orqanlarının inkişafı haqqında Fərman imzalanmışdır.

Bu gün geniş səlahiyyətlərə malik olan Azərbaycan ədliyyəsi qanunyaradıcı fəaliyyətdə aktiv iştirak edir, qeydiyyat və notariat, penitensiar sistemin fəaliyyətini, məhkəmə qərarlarının icrasını təmin edir, məhkəmə ekspertizasını həyata keçirir, müxtəlif reyestrləri aparır və s.

Ədliyyə Nazirliyinin üzərinə qoyulan mühüm vəzifələrdən biri də bələdiyyələrin işinin təşkilinə kömək edilməsi və onlara metodoloji yardım göstərilməsi ilə yanaşı, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsidir. İnzibati nəzarət yerli demokratiyanın inkişafına xidmət edən hüquqi vasitədir və onun səmərəli həyata keçirilməsi olduqca vacibdir. Bununla əlaqədar “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Qanuna uyğun olaraq bu səlahiyyətlərin icrası Ədliyyə Nazirliyinə həvalə edilmişdir. Ölkə Prezidentinin 2006-cı ildə imzaladığı fərman və sərəncamları ilə Ədliyyə Nazirliyinin bu funksiyasını bilavasitə həyata keçirən Bələdiyyələrlə iş Mərkəzinin statusu yüksəldilmişdir.

100 illik tarixi olan Azərbaycan ədliyyəsinin son 20 ilə yaxın bir dövründə nazirlik tərəfindən ölkədə yerli demokratiyanın gücləndirilməsi ilə bağlı mühüm tədbirlər görülmüş, Azərbaycan Avropa Şurasına üzv qəbul olunandan sonra bu sahədə qanunvericiliyin intensiv inkişafı üzrə zəruri addımlar atılmış, bu təşkilatın Yerli və Regional Hakimiyyətlər Konqresi ilə sıx əməkdaşlıq qurularaq “Yerli özünüidarəetmə haqqında” Avropa Xartiyasının müddəaları əsas götürülməklə bələdiyyələrin təşkilini və fəaliyyətini bilavasitə tənzimləyən çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmişdir.

Ədliyyə tarixinin mühüm nailiyyətlərindən biri də ilk dəfə olaraq nazirliyin regional ədliyyə idarələrinin yaradılmasıdır ki, ilbəil təkmilləşən bu qurumun fəaliyyət istiqamətlərindən biri məhz bələdiyyələrə metodiki köməklik göstərmək və onların fəaliyyətinə inzibati nəzarəti həyata keçirməkdir. Onlar nazirliyin Bələdiyyələrlə İş Mərkəzi ilə birgə bu sahədə görülən tədbirlərdə yaxından iştirak edirlər.

Eyni zamanda, inzibati nəzarətlə bağlı nazirlik tərəfindən illik məruzələr hazırlanaraq Milli Məclisdə dinlənilir, bələdiyyələrin potensialının gücləndirilməsi, onların sosial-iqtisadi inkişafda rolunun artırılması və digər məsələlərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər irəli sürülür.

Bu gün yerli özünüidarəetmə orqanı kimi fəaliyyətdə olan bələdiyyələr cəmiyyətdə öz yerini təsdiq edib və getdikcə əhali arasında nüfuzu artmaqdadır. Hazırda 1600-ə yaxın bələdiyyədə qadınlar və gəncləri də geniş təmsil olunur, 15 minədək bələdiyyə üzvü fəaliyyət göstərir. Onların hüquqi maariflənd irilməsi daim diqqətdə saxlanılır. Belə ki, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi, Ədliyyə Akademiyası və regional ədliyyə idarələri tərəfindən bələdiyyə nümayəndələri üçün mütəmadi seminar-müşavirələr və silsilə təlimlər təşkil olunur. Bu sahədə həyata keçirilən məqsədyönlü fəaliyyət Azərbaycan ədliyyəsinin davamlı inkişafına xidmət edir. Əminliklə söyləyə bilərik ki, yeni-yeni nailiyyətlərlə özünün 100 illik tarixinə qədəm qoymuş Azərbaycan ədliyyəsi bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi islahatlar aparılmaqla daim müasirləşəcək, demokratik-hüquqi dövlət quruculuğuna öz layiqli töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək qarşıdan gələn Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə bütün həmkarlarımızı təbrik edir, üzərlərinə düşən vəzifələri əzmlə və layiqincə yerinə yetirilməsi üçün işlərində müvəffəqiyyətlər arzulayıram.

**Zahir ƏLİZADƏ,**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin rəisi.**

# Azərbaycan dəmir yolları yeni inkişafa doğru



**Müstəqil Azərbaycan sürətlə inkişaf edir, yüksək iqtisadi uğurlar əldə edir. Təməlini ulu öndərimiz Heydər Əliyevin qoyduğu iqtisadi islahatların bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilməsinin nəticəsidir ki, həyatımızın bütün sahələrində olduğu kimi nəqliyyat, o cümlədən də ölkənin dəmir yolu sahəsində yeni inkişaf dönəmi başladı. Ölkənin iqtisadi inkişafı üçün nəqliyyat ən mühüm amillərdən biridir deyən ölkə rəhbəri bu sahəyə xüsusi qayğı və diqqət göstərir. Uğurla həyata keçirilən islahatların sayəsində bu gün Azərbaycan dəmir yolu sahəsində logistik mərkəzə, tranzit ölkəyə çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyat dəhlizinin reallaşdırılması, Şərq-Qərb, Şimal-Cənub beynəlxalq əhəmiyyətli, qlobal layihələrin həyata keçirilməsində Azərbaycan əsas rol oynayır.**

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəmir yolu sektorunun inkişafı, yenidən qurulması və müasirləşməsi ilə bağlı qarşıya qoyduğu işlər "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun Cəmiyyətə sədr təyin olunmasından ötən dövr ərzində yeni texnologiyaların tətbiq olunması ilə ardıcıl olaraq, yüksək keyfiyyətlə həyata keçirilir. Dəmir yolunun inkişafına dair qəbul olunmuş Dövlət Proqramına əsasən, enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yenilənməsi və digər mühüm işlər yerinə yetirilmişdir. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmət səviyyəsinin müasir tələblərə çatdırılması, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz olaraq vaxtında çatdırılması üçün müasir texniki vasitələrin yeniləşdirilməsi əsas şərtlərdəndir.

Son vaxtlar "ADY" QSC-nin sədri Cavid Qurbanovun rəhbərliyi ilə dəmir yolunun, lokomotiv parkının yeniləşdirilməsi istiqamətində də mühüm addımlar atılır. Bu istiqamətdə "Azərbaycan Dəmir Yolları" QSC ilə Fransanın "Alstom Transportation S.A." şirkəti arasında 12 may 2014-cü il tarixdə "ADY" QSC ilə "Alstom" şirkəti arasında dəyişən cərəyanla işləyən 40 ədəd yük, 10 ədəd sərnişin lokomotivlərinin alınması ilə bağlı müqavilə imzalanmışdır. Artıq Fransanın Belfort şəhərində şirkətin "ADY" QSC üçün istehsal etdiyi birinci Prima M4 sərnişin lokomotivinin və Qazaxıstanın "Astana" xüsusi iqtisadi zonasının ərazisində yerləşən EKZ zavodunda ilk yük lokomotivi olan Prima T8-in (AZ8A) təqdimat mərasimi olub. Bu günlərdə isə iki sistemli sərnişin lokomotivinin dəmir yolunun Puta-Qaradağ mənzilində saatda 159 km sürətlə uğurlu sınaq yürüşü keçirilib. Bu sürət ölkə dəmir yolu tarixində bir ilkdir. Tam istismara verildikdən sonra artıq beynəlxalq tələblərə cavab verən sərnişindaşıma xidmətinin həyata keçirilməsi təmin ediləcək və sərnişinlər mənzil başına daha tez və təhlükəsiz şəraitdə çatdırılacaq.

Ötən üç ildə dəmir yolunun tikinti, quruculuq işləri geniş vüsət almışdır. Bunlardan paytaxtımızın giriş qapısı olan Bakı Sərnişin Vağzalının müasir dünya standartları səviyyəsində olması üçün burada yenidənqurma işləri aparılmışdır. Vağzalın əsas binasının fasadı yenidən qurulmuş, vağzalın inzibati binasının daxilindəki iş otaqları və bilet kassaları, saxlama kameraları, sərnişin platformaları tamamilə yeni, müasir görkəm almışdır. Bundan başqa, Bakı və Sumqayıt şəhərləri arasında mövcud olan sərnişin sıxlığını, eləcə də avtomobil yolunda tıxac problemini həll etmək üçün bu şəhərlər arasında mövcud olan dəmir yolu xətti yenidən əsaslı təmir edildi və 2015-ci ilin 12 sentyabrında Bakı şəhərinin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edəcək ilk sərnişin qatarının yolasalınma mərasimi keçirildi. Azərbaycan Prezidenti cənab İlham Əliyev tədbirdə iştirak etmiş, burada həyata keçirilən təmir-tikinti işlərini yüksək qiymətləndirmişdir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin inzibati binasında da yenidənqurma işləri ən yüksək səviyyədə aparılmışdır. İnzibati bina 1956-cı ildən istifadəyə verilsə də burada heç bir təmir işləri görülməmişdir. İnzibati binanın dam örtüyü tamamilə dəyişdirilmiş, işçilərə müasir tələblər səviyyəsində iş şəraiti yaradılmış, bütün iş otaqları yeni mebel və avadanlıqlarla təchiz edilmiş, binanın isitmə və soyutma sistemi mərkəzləşdirilmiş, sürətli internet şəbəkəsinə qoşulma təmin olunmuşdur.



Ölkə başçısının tapşırığına əsasən Azərbaycan brendi olan "Asan Xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətlərinə olan tələbatını təmin etmək üçün müasir texniki avadanlıqlarla təchiz olunmuş səyyar "Asan qatar" konsepsiyası reallaşdırılıb. Bakı Vaqon Deposunda hazırlanan səyyar "Asan qatar"da gözləmə zalı, xidmət zalı, laboratoriya, əməkdaşların istirahət kupeləri olmaqla 4 vaqondan ibarətdir. Burada ilk dəfə olaraq "ADY" QSC-nin xidmətləri üçün ayrıca pəncərə yaradılıb. Bu səyyar qatarda 4 dövlət orqanına - Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, həmçinin Əmlak Məsələləri Dövlət Komitəsinə 9 növ xidmət göstəriləcəkdir. Bu xidmətin yaradılmasında isə əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlar üçün daha rahat, yeni və innovativ üsullarla əlçatanlığını təmin etmək və region sakinlərinin məmnunluğuna nail olmaqdır. "Asan qatar"ın ilk fəaliyyətə başladığı məntəqə Qazax rayonu olmuşdur.

Son illər dəmir yolu xətlərinin dəyişdirilməsi və əsaslı təmiri işlərinə də start verilmişdir. Bu müddət ərzində Bakı— Böyük— Kəsik yollarının əsaslı təmiri də diqqət mərkəzində olmuşdur. 14 aprel 2015-ci ildə "Azərbaycan Dəmir Yollarının yenidən qurulması" layihəsinin 2-ci mərhələsinin icrası məqsədilə, "Azərbaycan Dəmir Yolları" QSC ilə Çexiya Respublikasının "MORAVİA STEEL" şirkəti arasında "Azərbaycan Respublikası Dəmir Yollarının Bakı-Böyük-Kəsik sahəsində 600 km hissəsinin maddi-texniki təchizatı və əsaslı təmiri" barədə İxrac müqaviləsinə əlavə saziş imzalanmışdır. 2015-ci ilin oktyabr ayından etibarən təmir işlərinin növbəti mərhələsinə start verilmişdir.

Azərbaycanın tranzit potensialının artırılması üçün də olduqca uğurlu addımlar atılır. Ölkəmizin önəm verdiyi layihələrdən biri də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir. "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin yaradılması tarixi bir hadisədir. Bu dəhliz Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir.

Bu layihənin icrası çərçivəsində Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələri yerinə yetirdi. Artıq Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 km dəmir yolunun çəkilişi və Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikintisi yekunlaşıb, sınaq qatarı sərhədi yeni tikilmiş körpü vasitəsilə keçib. Eyni zamanda Astara (İran) 35 hektar ərazidə dəmir yolu stansiyasının tikintisi və yüklərin boşaldılması üçün terminalın inşası davam edir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi tam gücü ilə fəaliyyətə başladıqdan sonra Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. "Şimal-Cənub"



Beynəlxalq Nəqliyyat Dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır.

Cənub-Qərb Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində görülən işlər də təqdirəlayiqdir. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini xeyli azaldır. İlkin hesablamalara görə bu dəhliz üzrə yükdaşımaları 7 gün ərzində həyata keçirmək mümkün olacaqdır.

Bu gün Azərbaycan dəmir yollarında yeniləşmə işləri sürətlə davam etdirilir və bu işlərdə dəmiryolçuların MHİRK-nin kollektivi də öz töhfəsini verir. "ADY" QSC-nin rəhbərliyi dəmiryolçuların sosial-iqtisadi problemlərinin həllini də öz fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edir. "ADY" QSC ilə MHİRK arasında imzalanmış saziş məhz bu məqsədə xidmət edir. Dəmiryolçuların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması daim nəzarətdə saxlanılır və ön plandadır. Mütəmadi olaraq onların şikayət və ərizələrinə baxılması, problemlərinin həlli yolları müzakirə edilir, mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görülür. MHİRK-in Rəyasət Heyətinin qərarına əsasən 22 müəssisə "İlin ən yaxşı müəssisəsi", 73 nəfər "Əla yol işçisi", 30 nəfər maşinist "F.Ağayev adına" mükafata layiq görülüb. Dəmiryolçuların sosial vəziyyətlərinin, o cümlədən mənzil şəraitinin yaxşılaşdırılması "ADY" QSC-nin sədri Cavid Qurbanovun daim diqqətindədir. Cəmiyyət rəhbərliyi və MHİRK-in əlbir fəaliyyəti sayəsində 178 nəfər yeni mənzillə təmin olunmuş, hazırda isə bayram ərəfəsində 22 nəfər mənzillə təmin olunacaqdır və bu işlər bundan sonra da davam etdiriləcəkdir. Vurğulayım ki, 2014-2018-ci illərin yay mövsümündə 7 min nəfərə yaxın dəmiryolçu və onların ailə üzvləri Nabranda fəaliyyət göstərən "Lokomotiv" İstirahət Mərkəzində istirahət etmişlər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar "ADY" QSC ilə MHRİK-i" Heydər Əliyev və "Azərbaycan Dəmir Yolu nəqliyyatı" mövzusunda elmi-praktik konfrans - "dəyirmi masa" keçirilib. Bundan başqa, "Lokomotiv" İstirahət Kompleksində ulu öndərin 95 illiyinə həsr olunmuş idman spartakiadası keçirilib. 5 idman növü ilə keçirilən yarışda 200-dən çox dəmiryolçu - idmançı mübarizə aparmışdır. Spartakiadanın qaliblərinə yubiley ərəfəsində kubok, diplom və pul mükafatları təqdim olunmuşdur. Bu yaxınlarda Azərbaycan dəmiryolçularının MHİRK-in III Plenumunda da son vaxtlar ölkə dəmir yolunda həyata keçirilən islahatlar, əldə olunan uğurlar və qarşıda duran perspektiv planlar haqqında söhbət aparıldı. Plenumda qeyd olundu ki, qazanılan bu uğurların təməlində "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanov başda olmaqla bütün dəmiryolçuların gərgin əməyi dayanır. Plenumda idarə və müəssisələrdə ərizə və şikayətlərə baxılmasının vəziyyəti və s. məsələlər barədə də müzakirələr aparıldı. Bundan başqa, Bakıda "Nəqliyyatçıların əmək hüquqlarının həmkarlar ittifaqları tərəfindən müdafiəsi" mövzusunda VII Beynəlxalq regional konfrans keçirildi. Konfransda MDB və Baltikyanı ölkələrin nəqliyyat işçilərinin 30 həmkarlar ittifaqlarından 80 nümayəndə iştirak etdi. Konfrans iştirakçılarına son zamanlar ölkənin dəmir yolu sektorunda görülən işlər, həyata keçirilən islahatlar, işçilərin sosial problemlərinin həlli istiqamətində atılan addımlar barədə məlumat verildi.

Ötən ay sentyabrın 18-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə "ADY" QSC-nin sədri Cavid Qurbanov "Şöhrət" ordeni ilə təltif olundu. Bu təltif həm də dəmiryolçuların əməyinə verilən böyük qiymət kimi də qəbul olunur. Fürsətdən istifadə edib bütün dəmiryolçular, o cümlədən dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi və şəxsən öz adımdan hörmətli Cavid Qurbanovu bu təltif münasibətilə təbrik edir, ona fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Fəzail BAĞIROV,**
**Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri.**



# Cehiz xalısız olmaz...

**Vaxtilə adı dillərdə gəzən, şöhrəti dünyanı dolaşan, bir çox mötəbər sərgilərdə layiqli yer tutan, anaların cehiz tədarükündə başda dayanan, gözəlliyi və rəngarəngliyi ilə diqqəti daha çox cəlb edən Ağdam xalçaları xalqımızın xalçaçılıq mədəniyyətində özünəməxsus yer tutur. Qədimliyi ilə seçilən bu xalçalar Azərbaycan dekorativ tətbiqi sənətinin nadir incilərindən hesab olunur. İşğaldan əvvəl bu qədim tarixi şəhərdə böyük xalçaçılıq fabriki fəaliyyət göstərirdi.**

Bu istehsal müəssisəsində Qarabağ xalçalarının ən qədim çeşniləri və müasir naxışları ilə toxunan xalçalar qiymətli sənət əsəri kimi qorunub saxlanır, eyni zamanda, dünyanın bir çox ölkələrinə ixrac olunurdu. Ermənistanın hərbi təcavüzü bu qədim el sənətinə də ağır zərbə vurdu, təcrübəli və mahir xalçaçılar öz yurd-yuvalarından didərgin düşdülər.



Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən ardıcıl tədbirlər, bununla bağlı Dövlət Proqramının qəbul edilməsi, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində həyatın bütün sahələrində inkişafa nail olunub. O cümlədən də, xalçaçılıq sənəti yeni mərhələyə qədəm qoyub.

"Azərxalça" ASC-nin filiallarından biri də xalçaçılığın zəngin ənənələrinin qorunub saxlanmasında və inkişaf etdirilməsində mühüm rol oynayan Ağdam rayonunda yaradılıb.

Buradakı xalça istehsalı emalatxanasında 80 nəfərdən çox toxucu çalışır. Onların əksəriyyəti gənclərdir. Toxucular "Azərxalça"nın təşkil etdiyi tədris-hazırlıq kurslarında bu sənətin sirlərinə yiyələniblər. Emalatxanada indiyədək 490 kvadratmetr məhsul istehsal edilib, 120 xalça kəsilib.

Quzanlıdakı fabrikdə Qarabağ qrupu Azərbaycan xalçalarının toxunmasına üstünlük verilir. Bu da tarixi Qarabağ xalçalarının yaşadılmasına xidmət edir. Qarabağ hər zaman özünün yüksək bədii zövqlə toxunmuş xalçaları ilə məşhur olub.

Ömrünün qırx ilini xalçaçılığa həsr etmiş Ceyran Əliyeva bu qədim el sənətinin incəliklərini ilmələrin dili ilə gənc xalçaçılara öyrədir. Prezident İlham Əliyevin 1 may 2017-ci il tarixli Sərəncamı ilə Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb . Ceyran xanım fəxri ada layiq görülməsini Ağdam xalçaçılıq sənətinə göstərilən ehtiramın təzahürü kimi dəyərləndirir və deyir:

—Filialda işləmək üçün Quzanlı qəsəbəsində "Azərxalça" ASC tərəfindən xalça toxucuları üçün tədris-hazırlıq kursları da təşkil edilib. Kurslar lazımı avadanlıqlarla, dəzgahlarla, xammalla, eyni zamanda, xalçaçılıq sənətinə dair müvafiq ədəbiyyatlarla, dərsliklərlə təchiz edilib.

"Azərxalça" ASC-nin təşkil etdiyi tədris-hazırlıq kurslarında məcburi köçkün qəsəbələrindən və müxtəlif kəndlərdən 100-dən çox qadın cəlb edilib. Kurslarda tədris alan toxucular Cəmiyyətin filialında daimi işlə təmin olunacaqlar. Onlar burada həm Qarabağ xalçaçılıq məktəbinin ənənələrini davam etdirəcək, həm də yaxşı əməkhaqqı almaqla ailələrinin sosial rifahını yaxşılaşdıracaqlar.



Qarabağ xalçaçılığının inkişafı üçün görülən tədbirlər onu deməyə əsas verir ki, artıq Qarabağ xalçaçılıq məktəbi öz yeni inkişaf mərhələsinin astanasındadır. Biz Qarabağ xalçaçıları da el sənəti olan xalçaçılığın inkişafına göstərilən diqqət və qayğıdan ruhlanaraq Qarabağ xalçalarının yenidən şan-şöhrətə çatması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Təcrübəli xalçaçı inam və həvəslə danışır, gələcək arzulardan söz açır, yeni müəssisənin yaratdığı sevinci hamı ilə bölüşmək istəyir. Yuxarıda qeyd etdiyimiz kimi, el ağbirçəklərinin cehiz xalısız olmaz arzuları xalçaçıların barmaqlarında ilmə naxış tutaraq xalıların üzərinə hopur. Onların daha bir müqəddəs arzuları var. Bu xalıları işğaldan azad edilən Ağdam şəhərində, Qarabağın muğam otağında toxusunlar.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Dövlət Baytarlıq Xidmətinin rəisi İsmayıllı, Şəki və Zaqatala rayonlarında

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin (DBX) rəisi Bayandur Rzayev İsmayıllı, Şəki və Zaqatala rayonlarında heyvan xəstəliklərinə qarşı aparılan profilaktik peyvəndləmə işləri, qurulması nəzərdə tutulan "BTS-1" ("BSL-1") səviyyəli baytarlıq laboratoriyaları üçün tələb olunan şəraitlə tanış olub və təsərrüfat sahibləri ilə görüş keçirib.**

Bayandur Rzayev baytarlıq idarələrinin diaqnostik kabinetləri üçün yaradılan şəraitlə yerində tanış olaraq yeni alınmış laboratoriya avadanlıqlarına, soyuducu kameralara və digər inzibati bölmələrinə baxış keçirib. Xidmət rəisi idarələrin maddi-texniki təminatı, baytarlıq kadrlarının təhsil səviyyəsi və epizootik tədbirlər planında nəzərdə tutulan iti yoluxucu xəstəliklərə qarşı aparılan peyvəndləmə tədbirlərinin nəticələri ilə yaxından tanış olub.

Respublikanın epizootik sabitliyinin saxlanılması sahəsində yerlərdə görüləcək tədbirlər barəsində baytarlıq idarələrinə müvafiq tapşırıq və göstərişlər verilib.

Səfər çərçivəsində Şəki rayonunda yerləşən Azərbaycan Sənaye Korporasiyasına (ASK) məxsus heyvandarlıq kompleksinə gələn Xidmət rəisi iribuynuzlu heyvanların saxlama, yemləmə şəraiti, müxtəlif xəstəliklərə qarşı aparılan peyvəndləmə tədbirləri ilə tanış olub və dabaq xəstəliyinə qarşı aparılan təkrar profilaktik peyvəndləmə tədbirini izləyib.

47 hektar ərazidə yerləşən heyvandarlıq kompleksində görülmüş işlərlə bağlı Xidmət rəisinə məlumat verilib. Bildirilib ki, kompleks 2008-ci ildən yaradılıb. Kompleks südlük istiqamətində inkişaf etdirilir. Heyvanların hamısı Hollandiyadan gətirilən yüksək südlük "HolsteinFriesian" cinsinə aiddir.

Kompleksin tərkibinə ferma binaları, pendir sexi, doğum, sağım və buzovluq bölmələri, yem istehsalı sahəsi, əkinçilik təsərrüfatı, peyin emalı sexi və digər köməkçi sahələr daxildir.

Hazırda kompleksdə 85 nəfər çalışır. Gündəlik 9 ton süd istehsal edilir. Gələcəkdə iş yerlərinin sayının 200-ə çatdırılması, məhsuldarlığın artırılması və ərazinin genişləndirilməsi nəzərdə tutulub.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Bağlar diyarının barlı-bərəkətli payızı

Dadlı, ətirli ağ alması ilə məşhur olan Qubaya barlı-bərəkətli bir payız gəlib. Qızılı rəngə bürünmüş bağlar bol məhsulu ilə daha füsunkar, daha gözəl görünür. Bu günlər bağlar əsl hünər meydanına çevrilib. Burada zəhmət bulaq kimi çağlayır. Bağban ailələri il boyu min bir zəhmətlə arayaərsəyə gətirdikləri bu gözəl nemətin yığımı ilə məşğul olurlar. Əlverişli keçən hava şəraitindən səmərəli istifadə edən bağbanlar məhsulu tez və itkisiz yığmağa tələsirlər. Ötən illərdən fərqli olaraq, bu il Quba bağlarında məhsul daha çoxdur.

**Rayon aqrar inkişaf mərkəzi bitkiçilik şöbəsinin müdiri Tarverdi İsmayılov** deyir: "Rayonumuzun ərazisində 17 min hektar, o cümlədən 14 min 500 hektar bar verən meyvə bağı vardır. Onun 1050 hektarı son illərdə ən müasir texnologiya əsasında salınmış super intensiv bağlardır. Bu il bağbanlarımız daha yaxşı işləmişlər. Bağlarda rekord miqdarda meyvə yetişib. Rayonun Alekseyevka, Zərdabi, Hacıhüseynli, Vladimirovka, I Nügədi və II Nügədi inzibati ərazi dairələrini əhatə edən kəndlərdə meyvə daha çoxdur. Super intensiv tipli bağlarda məhsuldarlıq yüksəkdir. Dəlləkli kəndində "D-FRUTİS" MMC, Gənclər qəsəbəsində "Cənnət" MMC, Vəlvələ kəndində "Çaparxana" kəndli fermer təsərrüfatı MMC, II Nügədi kəndində fiziki şəxs Vüsal Əzizovun təsərrüfatlarında məhsuldarlıq hər hektardan 500 sentnerdən çoxdur. Gün ərzində rayonda ən azı 1300-1400 ton alma yığılır. Onu da qeyd edim ki, rayonumuzda tutumu 23 min 850 ton olan 13 soyuducu anbar mövcuddur. Yüksəkkeyfiyyətli məhsul həm anbarlara yığılır, həm də Rusiya Federasiyası və Qazaxıstan Respublikalarına ixrac olunur. Məhsulun bir hissəsi isə Bakı şəhəri və respublikanın rayonlarına göndərilir. Emallıq alma Quba şəhərində yerləşən "Gilan Konserv" MMC, Xaçmaz rayonunda yerləşən "Qafqaz" konserv zavoduna və həmin rayonun Yeni Həyat kəndindəki konserv zavoduna təhvil verilir.

Hacıhüseynli İnzibati Ərazi Dairəsinə aid olan kəndlərin hamısı, demək olar ki, meyvəçilik üzrə ixtisaslaşıb. Burada 3 min hektara yaxın bağ sahəsi mövcuddur. Ərazidə bağçılıq ildən-ilə inkişaf edir. Son 5 ildə ərazidə bağlar xeyli cavanlaşıb, 500 hektara yaxın yeni bağ salınıb. Bağların 40 faizindən çoxu, demək olar ki, təmir olunub və ya yenidən qurulub.



Alekseyevka İƏD-də də bağ sahələrinin əksəriyyəti yüksək məhsuldarlığa malikdir. Zizik kəndində **bağban Hacıağa Bayramovun** ailə təsərrüfatında da bu il yaxşı məhsul yetişib. Ailə təsərrüfatına məxsus bağ sahəsindəyik. Burada iş ahəngdar qurulub. Bir tərəfdə meyvə dərilir, digər tərəfdə isə məhsul çeşidlənərək yeşiklərə yığılır. Cərgə aralarında fırlanan traktor isə hazır məhsulu kənara daşıyır. Budaqlarda muncuq kimi sıralanmış sapsarı almaları bizə göstərən qocaman bağban Hacıağa kişi "Bu il meyvəmiz həm keyfiyyətlidir, həm də çoxdur" deyir. Sonra əlavə edərək bildirir ki, bağçılığın sirləri çoxdur. Hər şey qulluqdan asılıdır. Atalar demişkən "bağa baxarsan bağ olar, baxmasan dağ". Bu sözlərin çox böyük mənası vardır. Əsl bağban həmişə bağın içində olmalıdır. Bağa ilboyu aqrotexniki xidmət göstərilməlidir. Bax, gördüyünüz bu ağacların tinglərini də öz əlimlə yetişdirmişəm. 2 hektarlıq bu bağ sahəsindən hər il yüksək məhsul götürürəm. Bu il də azı 300 sentner məhsul ala biləcəyəm.

Daim bağbanlar arasında olan **meyvəçi alim, Quba Aqrar Elm İnformasiya və Məsləhət Mərkəzinin direktor müavini, biologiya elmləri üzrə fəlsəfə doktoru Mədət Qurbanovla** da elə Zizik kəndinin bağlarında görüşürük. O, deyir ki, son illər Qubada bağçılıq intensiv inkişaf edir. Meyvəçiliyin inkişafı üçün bu rayon ideal torpaq iqlim şəraitinə malikdir. Alma Qubanın simvolu sayılır. 2003-cü ildən başlayaraq Quba RAEM-in təşəbbüsü ilə bölgədə intensiv bağçılıq müasir texnologiyalar əsasında inkişaf etməyə başlamışdır. Hazırda bölgədə meyvəçiliyi müasir texnologiyalar əsasında inkişaf etdirən 10-a qədər böyük şirkət, eləcə də 20-yə qədər fermer vardır. Onu da qeyd edim ki, yeni salınmış intensiv tipli alma bağlarında bir-iki əməliyyatı çıxmaq şərti ilə digər bütün işlər avtomatlaşdırılmış qaydada, yeni texnikalar vaitəsilə aparılır. Meyvə yığımında da müasir texnologiyadan istifadə olunur.

Quba respublikamızın əsas meyvəçilik bazasıdır. Bu gün rayonda dünya bazarında rəqabətə tab gətirə biləcək məhsuldar alma növləri yetişdirilir. Yetişdirilən alma həm də öz dadı və keyfiyyəti ilə də fərqlənir. Bağbanlar üzərlərinə düşən vəzifəni lazımınca yerinə yetiriblər. Mütəxəssislərin dediyinə görə, rayonda cari ildə 140 min tondan çox məhsul gözlənilir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Müstəqillik xalqımızın böyük tarixi nailiyyəti və milli sərvətidir



**İstiqlaliyyət günümüzün ölkəmizdə hər il təntənəli şəkildə bayram edilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəm təməllər üzərində qurulduğunu və əbədi olduğunu bir daha sübut edir. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Həmin gün respublika parlamenti - Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi.**

Sovet rejimi də Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmışdı. O, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və sovet dövlətinə etirazını bildirdi. 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərinə biganə qalmayaraq Kommunist Partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya Qanun qəbul etdilər. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsverməda Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı. Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə SSRİ-nin fəaliyyətinə xitam veriləndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi. Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik aktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu. Azərbaycan Xarici İşlər Nazirliyinin 1992-ci ilin yanvarında yaydığı məlumata görə dünyanın 50 dövləti Azərbaycan Respublikasını rəsmən tanımışdı. İrəlidə müstəqilliyin mürəkkəb, keşməkeşli illəri dururdu...

Azərbaycan özünün müstəqilliyinin ilk illərindən yeni geosiyasi vəziyyətin diktə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşmalı oldu. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi təlatümlər, zorakılıqlarla müşayiət olunan hakimiyyət ambisiyaları dövlət həyatını, cəmiyyəti idarəolunmaz vəziyyətə gətirmişdi.

1993-cü ilə qədər Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Özbaşınalıq şəraiti yaranmışdı, problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi. Çünki hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin necə böyük işlər gördüyünün şahidi idi.

Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi, iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında ölkə parlamentinə sədr seçilərkən xalq qarşısında bəyan etdi: **"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etdirilməsinə həsr edəcəyəm...".** Belə bir çətin məqamda yalnız Heydər Əliyev yeganə düzgün qərar verməyə qadir idi.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi bir tərəfdən milli ordunun formalaşması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət 1994-cü ilin mayında atəşkəs əldə edildi. Cəmiyyət dərin böhrandan çıxmaq, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlara başlamaq, davamlı inkişaf yoluna çıxmaq üçün müqəddəm şərtlər yarandı.

Şübhəsiz yeni müstəqil dövlətin həyatında ən əlamətdar hadisələrdən biri 1994-cü ilin sentyabrında xarici neft şirkətlərinin iştirakı ilə ilk neft müqaviləsinin - "Əsrin müqaviləsi"nin imzalanması idi. Azərbaycan iri regional qüvvələrin ciddi təzyiqləri ilə üzləşdi. Həmin qüvvələr müqavilənin reallaşması, eləcə də sonralar Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısını almaq üçün hər vasitədən istifadə etdilər. Amma Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti bu maneələri məharətlə aradan qaldırdı və nəticə etibarilə Xəzər hövzəsində gərginliyə son qoyuldu, əməkdaşlıq mühiti yarandı. Milli iqtisadiyyatın lokomotivi olan neft sənayesi müstəqil ölkə üçün böyük perspektivlər vəd edirdi. Heydər Əliyevin müəllifi olduğu milli neft strategiyası sonrakı illərdə böyük uğurla həyata keçirildi və bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, ölkənin müstəqilliyinin möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətin beynəlxalq aləmdə, ilk növbədə Avropada nüfuzunu artırmasına şərait yaratdı.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirib, ölkəmizin iqtisadi qüdrətini, gücünü artırıb. Ölkə rəhbərinin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.

Ötən on beş il ərzində infrastrukturun yenidən qurulması və inkişafı, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu, Azərbaycanın öz iqtisadiyyatını sadəcə neft amili üzərində qurmadığını, əldə olunmuş uğurlu nəticələrdə qeyri-neft sektorunun da mühüm paya malik olduğunu təsdiqləmişdir. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində ölkəmizdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmişdir.

Yeni keyfiyyət mərhələsinə qədəm qoymuş və özündə modernləşdirmə və rifah amillərini birləşdirən Azərbaycanın inkişafı nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. İyirmi yeddi il müstəqillik yolunda inamla, qətiyyətlə irəliləyən ölkəmiz artıq dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulub. SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş müttəfiq respublikalarla müqayisədə Azərbaycan sürətli inkişaf edib, bəzi sahələr üzrə təkcə regionda deyil, dünyada öncül yerlərdədir. Bu uğurlar ildən-ilə daha da artıb, əhəmiyyətli islahatlar aparılıb və ölkəmiz iqtisadiyyatın inkişaf tempinə görə dünyada lider dövlətə çevrilib.

Son 15 ildə ulu öndər Heydər Əliyevin parlaq ideyaları Azərbaycanın mayakı olub və xalqımızın, dövlətimizin yolunu işıqlandırıb. Bəhs olunan dövrdə ümummilli lider Heydər Əliyevin yolu ilə gedən respublikamız böyük uğurlara imza atıb, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayıb. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən də bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verib: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıb. Ölkəmizdə dövlət başçısının qətiyyəti sayəsində daxili risklərin hamısı aradan qaldırılıb, eyni zamanda, Azərbaycan xarici risklərdən də özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacağıq. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Demokratik dövlət quruculuğunu hədəfləyən və buna ölkə Prezidenti səviyyəsində böyük siyasi iradə göstərən Azərbaycanda ötən 15 il ərzində demokratik inkişaf çox sürətlə gedib, respublikamızda bütün azadlıqlar təmin edilib. Ölkəmizin demokratik inkişaf yoluna diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir: "Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir".

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan demokratik inkişaf yolunu heç də kimə isə xoş gəlmək üçün seçməyib. Ölkəmiz demokratiyaya ona görə sadiqlik nümayiş etdirir ki, respublikada siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Azərbaycan daha qüdrətli ölkəyə çevriləcək.

Bəhs olunan dövrdə bütün dünyada iqtisadi cəhətdən Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox az olub. Son 15 il ərzində iqtisadiyyatımız 3,2 dəfə artıb ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Həyata keçirilən davamlı dəstək tədbirləri, aparılan məqsədyönlü islahatlar sayəsində qeyri-neft iqtisadiyyatımız 2,8 dəfə artıb. O cümlədən qeyri-neft ixracı 4,1 dəfə artıb. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 70 faizi Azərbaycanın payına düşür.

Bu gün mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Heydər Əliyevin şah əsəri olan Müstəqil Azərbaycanı qoruyub yaşatmaq isə hər bir Azərbaycan vətəndaşının borcudur. Göründüyü kimi, Heydər Əliyev ideyaları daim yaşayır və müstəqil Azərbaycan dövləti, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə daha xoşbəxt gələcəyə doğru inamla gedir.

**Vəli ALBƏNDOV,**
**"Qarabağ-E.R" MMC-nin baş direktoru, Əməkdar mühəndis, Yeni Azərbaycan Partiyasının üzvü.**

# ƏHMƏD CAVADIN POEZİYASI

**Əhməd Cavadın poeziyamıza gəlişi iyirminci yüzilliyin ikinci onilliyinə təsadüf edir. Bu, elə bir dövr idi ki, ədəbi-ictimai mühitdə aparıcı qüvvə olan ziyalılar maarifin, mədəniyyətin yüksəlişi uğrunda çalışır, məktəblər açır, mətbuatı inkişaf etdirir, cəmiyyətdə ictimai-siyasi şüurun təkamülünə böyük əhəmiyyət verirdilər.**

Əhməd Cavad Gəncədə Ruhani seminariyasında təhsil almışdı, müəllimləri Hüseyn Cavid, Abdulla Sur, İdris Axundzadə onun ədəbi-ictimai görüşlərinin formalaşmasında böyük rol oynamışdılar. Vətənin rus imperializminin əsarətində miskin vəziyyətə düşməsi artıq ilk şeirlərindən onun gələcək yaradıcılıq yolunun ideya-estetik məramnaməsini əks etdirirdi. Vətənin "issız ormanlarının" "ərlər obası" olduğu keçmiş günləri arzulayan şair "indi günahımız çox böyükdür" deyir, "Qafqazlısan, sev Qafqazı" şeirində köləlik boyunduruğuna qarşı üsyan açırdı.

Dövrünün M.Ə.Sabir, C.Məmmədquluzadə, M.Hadi, H.Cavid kimi böyük simalarının milləti ayıltmaq, hərəkətə gəlmək çağırışlarına iyirmi yaşlı Əhməd Cavad da öz həyəcanlı haraylarını qatırdı.

*Ay qardaşlar, iş başına! Biz də bir iş görəlim!...*
*Yoxsa bizim mənliyimiz, varlığımız bitəcək!..*

1912-ci ildə "Qafqaz könüllüləri" sırasında bir sıra türk şəhərlərində xeyriyyə işlərində iştirakı Əhməd Cavadda türkçülük, turançılıq amalının sabitləşməsinə təkan vermişdi. Həmin ildə Türkiyənin zirehli gəmisinin yunan hərbi gəmisini məhv etməsindən ilhamlanıb böyük məhəbbətlə yazdığı "Çırpınırdın Qara dəniz, baxıb türkün bayrağına" şeiri bu gün də Türkiyədə bir himn kimi sevə-sevə oxunmaqdadır.

Əhməd Cavad xalqın, vətənin həyatı ilə birgə nəfəs alan ilk realist lirik şairimizdir. Tarixi-siyasi hadisələrlə zəngin 1917-1920-ci illərdə baş verən taleyüklü hadisələr onun iç dünyasının ən təlatümlü duyğu və həyəcanları şəklində əsərlərində təcəssüm etmişdir. Rus burjua və proletar inqilablarından sonra Azərbaycanın milli istiqlalının tezliklə reallaşa biləcəyi faktı şairin yaradıcılığına böyük ruh yüksəkliyi, mübarizə əzmi gətirdi. İctimai hərəkatda yaxından iştirakı şeirlərində siyasi məzmunu gücləndirirdi. Bu illərdə yazdığı "Mən kiməm" şeiri onun yaradıcılıq məramnaməsini ifadə edirdi:

*Mən çeynənən bir millətin,*
*Haqq bağıran səsiyəm.*

Şair "yoxsulların elinə olan haqsız axın"dan qəzəblənir, hürriyyət duyğulu vicdanları "yenilməz qala" olmağa çağırırdı.

Əhməd Cavad ömrünün ən bəxtəvər dövrünü Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı günlərdə yaşamışdır. Bu münasibətlə yazdığı "Can Azərbaycan" şeirində milli azadlığa çatmış vətəni "Torpağına can demişəm", "Suyuna mərcan demişəm", "Canımı qurban demişəm" deyə böyük səmimiyyətlə tərənnüm edirdi. Bu şeir həm də poeziyamızda sonralar böyük bir dastana çevriləcək "Azərbaycan" sərlövhəli poetik silsilənin ilk nümunələrindən biridir.

İlk milli Azərbaycan dövlətinin himnini də Əhməd Cavad yazdı və həmin himn bu gün də müstəqil dövlətçiliyimizin əsas atributudur. İllərdən bəri igid oğulların öz canlarını fəda etdikləri bu el azadlığına gedən yolda bütün ağrı-acıları şair qəlbən yaşadığı üçündür ki, himnin hər misrasında "Səndən ötrü can verməyə cümlə hazırız", "Sənə hər an can qurban" - deyə istiqlal şairinin böyük Vətən sevgisi dil açırdı.

1920-ci ildə aprel çevrilişindən sonra vətənin yenidən işğalı şairin şeirlərinə dərin bir kədər, bədbin ruh gətirdi. Bu dövrdə yazdığı: "Yoxsa" şeirində Əhməd Cavadın ictimai-siyasi dəyişikliklə bağlı duyğuları çox aydın ifadə olunurdu:

*Göllərdəki ufaq dalğalar kibi,*
*Bən də böylə çapuk sönecekmiyim?*
*Yeni çıxmış ikən ömür yoluna,*
*Yoxsa yarı yoldan dönecekmiyim?*
*Qarşımda açılıb dərin bir boşluq,*
*Uzanmış qalacaq qollarım bəlkə,*
*Mən kimə söyləyim bu bitməz dərdi,*
*Bilməm ki, dinləyən, anlayan varmı?*

1922-1924-cü illərdə yazılmış bu qismdən "Sən ağlama", "Unudulmuş sevda", "Madonna" kimi şeirlərdəki lirik ovqat uzun illər ədəbi tənqiddə, ədəbiyyat tarixi kitablarında xırda-burjua əhval-ruhiyyəsinin təzahürü kimi tənqid atəşinə tutulurdu. Nəhayət, 1990-cı ildə Azərbaycan tam müstəqilliyə çatandan sonra bu simvolik "sevgi" şeirlərinin həqiqi mənasından bəhs oluna bildi. 70 il sonra nəhayət, demək mümkün oldu ki, bu şeirlər ən müqəddəs amalına - Vətənin müstəqilliyinə çathaçatda ikən yenidən buxovlanıb dərin bir "boşluğa yuvarlanması" faciəsini yaşayan şairin böyük kədərinin həqiqi mənası "nakam məhəbbət"lə deyil, onun milli azadlıq duyğuları ilə bağlı idi. Həmin illərdə Əhməd Cavadın sevimli həyat yoldaşı Şükriyyə xanım, üç oğlu və çox gözəl qızı Almazdan ibarət qibtəedilesi xoşbəxt bir ailəsi var idi. Lakin şairin könül təranələri:

*Eşqimin nə imiş bilməm günahı,*
*Yıxıldı könlümün istinadgahı,*
*Nəsibim olsa da dünyanın ahı,*
*Bir gün göz yaşımı siləcəyəm mən.*

- deyə fəryad edirdi. Bu bədbin motivli şeirlər böyük vətənpərvər şairin mənəvi bütövlüyünü, əqidəsinin sarsılmazlığını özündə yaşadırdı. Cümhuriyyətin zorən süqutu ilə şairin iç dünyasına hakim kəsilən sarsıntının, əzabın səbəbini dərk edəndən sonra onun "Göy göl", "Kür", "Səsli qız" əsərlərini də obyektiv dəyərləndirmək olur. "Göy göl" şeirindəki "Qəlbində yer verdin ulduza, Aya" misrasına görə bəhanə edib şairi 1924-1925-ci illərdə iki dəfə həbs də etmişdilər. "Səsli qız" poemasında keçmiş zamanlarda ölkəyə qonşu padşahın qəfil hücumundan və qanlı qələbəsindən bəhs olunsa da, kiçik bir lövhə ilə zamanının faciəsinə işarə edirdi. Qəsbkarın əmri ilə istila günü ümumxalq bayramı kimi şadyanalıq edilməli, xalqın mənliyi tapdanmalı, heysiyyəti alçaldılmalı idi. Sovet dövrünün Oktyabr bayramı, 1 May bayramı təntənələrini yada salaq. "Kür" poemasında isə şair Kürə adi bir təbiət lövhəsi kimi baxmır, onda candan artıq sevdiyi Vətəninin bir parçasını görürdü. Əsərin sonunda zahirən öz xeyri üçün Kürün istismarına qalxan insanın qələbə notlarından daha çox hazırda təcavüzə məruz qalmış bu vətən obyektinə qayğı, mərhəmət ovqatı səslənir. Böyük hüznlə, kədərlə Kürə "Əyil, Kürüm, əyil, keç, Dövran sənin deyil, keç" deyən şair özü əyilməzliyin simvolu oldu, amalı yolundan dönməyib, şəhidliyi uca tutdu.

Əhməd Cavadın 1937-ci ildə sovet dövləti tərəfindən həbs edilib, "xalq düşməni" kimi öldürülməsinin bircə səbəbi var idi: o, xalqının azadlıq təşnəsi ilə yanan qeyrətli oğullarından olmuşdur. Dövran onun olmasa da əyilib keçmədi. Ölümü seçib Vətəninin qoynunda, xalqının qəlbində poeziyamızın İstiqlal şairi kimi ədəbi məskən saldı.

**Safurə QULİYEVA,**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi.**

# Yeni layihənin təməli qoyulmuşdur

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində daha bir yeni - "Maraqlı insanla söhbətlər" layihəsinin təməli qoyuldu.**

Tədbirdə həmsöhbət Azərbaycan Voleybol Federasiyası (AVF) komandasının yeniyetmələr qrupunun həkimi Natalya Kopteyeva idi. O bildirdi ki, yeni layihə "Ukraynada yaşayan azərbaycanlılara dəstək və məlumat qrupu" ilə birgə həyata keçiriləcək. Oxuculara təqdim olunan ilk müsahibəni "Ukraynada yaşayan azərbaycanlılara dəstək və məlumat qrupu" rəhbəri Ənvər Haqverdiyev və qrupun üzvü, həkim Xanım Şükürlü götürmüşdülər.

Müsahibənin tam mətni *http://yasamal.cls.az/front/files/libraries/81/documents/761874521.pdf* yerləşdirilmişdir.

Xatırladaq ki, "Ukraynada yaşayan azərbaycanlılara dəstək və məlumat qrupu" iki aya yaxındır ki, Facebook sosial şəbəkədə fəaliyyətə başlayıb. Qrupun 1200 üzvü vardır. "Maraqlı insanla söhbətlər" layihəsinin rəhbəri "İnformasiya hamı üçün" YUNESKO proqramının Azərbaycan komitəsinin sədri, Yasamal rayon



MKS-nin direktoru, dr. Lətifə Məmmədova, icraçı direktoru Ənvər Haqverdiyev, koordinatoru Kifayət Hüseynovadır.

**Əli SADIQOV,**
**"Respublika".**

# SOCAR AQŞ-də tələbələrin 2018-ci il Yay İstehsalat Təcrübəsi Proqramı uğurla başa çatıb




SOCAR AQŞ-nin Yay İstehsalat Təcrübəsi Proqramı çərçivəsində cari ilin iyul-avqust aylarında müəssisənin struktur bölmələrində istehsalat təcrübəsi keçən tələbələrin yay təcrübəsi uğurla başa çatmışdır. Qeyd edək ki, bu il daxil olan 1500 müraciətə əsasən ilkin seçim mərhələsini, həmçinin test və müsahibə mərhələlərini uğurla keçən 35 tələbə SOCAR AQŞ-də iki aylıq istehsalat təcrübəsi keçmək hüququ qazanıb. Tələbələr yay istehsalat təcrübəsi zamanı müəssisədə gedən iş prosesi ilə yaxından tanış olaraq stasionar özüllərdə istismarda olan yeni nəsil qazma qurğuları, onlara nəzarət və idarəetmə sistemlərini, texnoloji prosesləri öyrənmişlər.

Yay istehsalat təcrübəsi proqramının yekun təqdimat mərasimində iştirak edən müəssisənin Baş direktoru Ramin İsayev təcrübə proqramının əhəmiyyətindən danışıb: "SOCAR AQŞ ixtisasını sevən, təşəbbüskar, yaradıcı və yüksək ixtisas biliklərinə sahib gənclər üçün müəssisənin müxtəlif struktur bölmələrində təcrübə keçmək imkanı yaradır. Hər il yerli universitetlərlə yanaşı Avropa və Asiyadan onlarla ali təhsil müəssisələri öz tələbələrinin SOCAR AQŞ-də istehsalat təcrübəsi keçməsi üçün yeni əməkdaşlıq təklifləri ilə çıxış edirlər. Bu günlərdə müəssisə 2018-2019-cu il müddəti üçün Davamlı Təhsil və Təlim Beynəlxalq Assosiasiyası (İACET PNG) tərəfindən "İlin Ən Nümunəvi Təlim Şirkəti" mükafatına layiq görülmüşdür".

Təqdimat mərasimində tələbələr arasında SOCAR AQŞ-də biznes proseslərinin və xərclərin optimallaşdırılması məqsədi ilə müsabiqə keçirilmişdir. Müsabiqənin mükafat fondu ümumilikdə 2350 azn təşkil edib. Müəssisədə istehsalat təcrübəsi keçmiş tələbələr 7 komandada birləşərək qrup təklifləri ilə münsiflər heyəti qarşısında çıxış ediblər. Qalib komandalar mükafatlara layiq görülüblər.

Tədbirin sonunda müəssisədə istehsalat təcrübəsini uğurla başa vuran tələbələrə Baş direktor tərəfindən müvafiq sertifikatlar təqdim edildi.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**




# AKSİYA: "Renessans Palace"da mənzillər 36000 AZN endirim və 36 aylıq faizsiz ödənişlə

**Bakıda ucaldılan ən parlaq layihələrdən biri, paytaxtın ən iri premium sinif yaşayış kompleksi "Renessans Palace"da həm endirim, həm də taksitin tətbiq olunduğu yeni aksiya başlanıb. "AS Qrup İnvestment" şirkətinin inşa etdiyi kompleksdə başladılan "Payız aksiyası"nın təklif etdiyi fürsətlər aşağıdakılardır:**

Premium kateqoriyalı mənzilə sahib olmaq istəyən şəxslər üçün 15%-dək endirim tətbiq olunacaq. Bu isə 36 000 AZN-dək daha az ödəniş etmək imkanı deməkdir. Üstəlik, burada ev alan şəxslər istədikləri təqdirdə, ödənişi birbaşa yox, hissə-hissə 36 ay müddətinə, həm də heç bir əlavə faiz ödəmədən həyata keçirə bilərlər.

Yaşayış kompleksinin inşası artıq tamamlanmaq üzrədir və onun ilin sonunda təhvil verilməsi planlaşdırılır. Təhvildən sonra isə mənzillərin qiymətində artımın olması gözlənilir.

İnfrastrukturunda, binanın keyfiyyətində və digər xüsusiyyətlərdə premium seqmentin bütün tələblərinə riayət olunmaqla inşa olunan "Renessans Palace" 4 korpus, 20 blok, 1084 mənzildən ibarətdir. Binaların hər mərtəbəsində mənzil sayı maksimum 4-dür. Hər blokda 3 ədəd "Mistubishi" markalı liftlər quraşdırılıb.

Mənzillərin hündürlüyü standart ölçülərdən daha artıq - 3.35 metrdir. Çöl divarlar termobloklarla tikildiyindən evlər yayda sərin, qışda isə isti qalır. Bu isə enerjiyə 40% qənaət etməkdir. Pəncərələr izosistemli, 4 kameralı olduğundan Bakı küləyinin səsini və soyuğu içəri buraxmır.

"Renessans Palace" qaçış zolağı, idman meydançaları, açıq hava stadionları, meşətipli yaşıl 1.5 hektar ərazisi ilə Bakının ən böyük həyətinə sahib kompleksdir. Üç mərtəbəli, 1550 avtomobil yeri ilə də paytaxtda ən iri yeraltı parkinq bu kompleksdədir.

Aksiya barədə, həmçinin əlavə şərtlər və təkliflər barədə məlumatı 0125382977 və 0507158888 telefon nömrələri ilə əlaqə saxlamaqla əldə etmək olar.


# Tərtər: Pambıq yığımının qızğın çağıdır

**Azərbaycanda ötən əsrin 70-ci illərində pambıqçılıq kənd təsərrüfatında aparıcı sahələrdən biri olmuşdur. Ulu öndər Heydər Əliyevin pambıqçılığa göstərdiyi diqqət nəticəsində ölkədə pambıq istehsalı rekord göstərici - bir milyon tona çatmışdı. Lakin Azərbaycanın müstəqilliyinin ilk illərində bu gəlirli sahə yaddan çıxarılaraq tənəzzülə uğradı. Ancaq ümummilli liderin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələrdə, o cümlədən aqrar sahədə xüsusi canlanma başladı. 2010-cu ildə ölkədə "Pambıqçılıq haqqında" qanun qəbul olundu. Torpaqlardan səmərəli istifadə etmək və əhalinin məşğulluğunun artırılmasına şərait yarandı.**

Hazırda Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində pambıqçılıq özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Respublikanın Aran rayonlarının əksəriyyətində pambıq əkininə kifayət qədər şərait yaradılmışdır. Məlum olduğu kimi, Tərtər rayonu pambıqçılığın yüksək təşəkkül tapdığı bölgələrdən biridir. Qeyd etmək lazımdır ki, ötən il Tərtər pambıq istehsalı üzrə respublikada yüksək məhsuldarlıq əldə etdi. Hazırda rayonda "Ağ qızıl" toplanışının qızğın çağıdır.

Real vəziyyətlə tanış olmaq üçün Kənd Təsərrüfatı Nazirliyi Tərtər Dövlət Aqrar inkişaf mərkəzinin direktoru Mehman Babayevlə həmsöhbət olduq. O bildirdi ki, 2017-ci ildə rayonda 3123 ha sahədə pambıq əkilərək 8419,9 ton (hər ha-dan 27 sent) məhsul əldə olunmuşdur. Cari ildə 3300 ha sahədə pambıq yığımı davam etdirilir. Qeyd etmək lazımdır ki, sahələrə yüksək aqrotexniki qulluq göstərilmişdir. Dərmanlama işləri vaxtlı-vaxtında aparılmış, 4-5 dəfə suvarma suyu ilə təmin olunmuşdur. Rayon rəhbərliyi bu sahəni daim ciddi nəzarətdə saxlayır. Fermerlər pambıqçılığa dövlət dəstəyinin artırıldığına və bu sahənin gəlirli olduğundan hər il əkin sahəsini bir qədər də artırırlar. Sentyabrın 19-da Prezident İlham Əliyevin tövsiyə, tapşırığı əsasında Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin məsul işçilərinin iştirakı ilə pambıq istehsalı və emalı ilə məşğul olanlarla görüş keçirilib. Görüşdə pambıq əkən fermerlərin məhsul istehsalına, yığımına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətlərinin hər ton üçün 50 manat artırılmışdır.

Rayonun Bəyimsarov kəndində fəaliyyət göstərən fermer Fazil Vəliyev ötən il 50 ha sahədə pambıq əkmiş və 152 ton məhsul əldə etmişdir. Bu gəlir fermeri qane etdiyindən bu il 89 ha pambıq əkini həyata keçirmişdir. Mütəxəssislərin proqnozuna görə hər ha-dan 40 sentner məhsul gözlənilir. Eyni kənddə fəaliyyət göstərən fermer Hilal İbrahimovun əkin sahələrində də ürəkaçan mənzərə ilə rastlaşmaq olar. Cari ildə fermer 70 ha sahədə pambıq əkib becərmişdir. Əkilən sahəni 30 ha "Azərpambıq"ın Tərtər filialı, 40 ha isə MKT-nin Tərtər filialı ilə bağlanmış müqavilə əsasında əkilmişdir. Qeyd olunan şirkətlər fermeri maliyyə dəstəyi ilə təmin edir, məhsul yığılaraq göstərilən təşkilatlara təhvil verildikdən müəssisələrin çəkdiyi xərc qaytarıldıqdan sonra qalan vəsait fermerə çatır. Hər bir fermerin təsərrüfatına 70-80 nəfər işə cəlb olunur. Bundan başqa, Əskipara kənd sakini Babışov Müslüm 32 ha, Babışov Fəqani Şıxarx kəndində 33 ha, cəbhə bölgəsinə yaxın ərazidə yerləşən Qazyan kəndində Ələkbərov Ruslan 32 ha, Sarov kəndində Nuriyev Emin 33 ha və s. sahələrdə pambıq əkmiş və sahələr becərilmişdir. Pambıq yığımının optimal müddətdə başa çatdırılması üçün rayonda kifayət qədər texnika vardır. MKT-nin Tərtər filialı 8 kombayn, 16 özüdaşıyan traktor, 32 ədəd setkalı qoşqu, "Azərpambıq"ın Tərtər filialında isə 3 ədəd kombayn, 16 traktor, 32 qoşqu vardır. Pambıq sahələrində çalışan zəhmətkeşlərin əmək haqları hər gün iş saatının sonunda nağd şəkildə ödənilir. Əminliklə qeyd etmək olar ki, tərtərlilər ötən il-ki nailiyyəti yenə də qazanacaqlar.





Vəli VƏLİYEV,
"Respublika".


## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## Azərbaycan Texniki Universiteti
### aşağıdakı boş olan vəzifələri tutmaq üçün
# MÜSABİQƏ ELAN EDİR

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün:**

| | | |
|---|---|---|
| 1. | Avtomatika və kompüter texnikası | |

**Kafedralar üzrə kafedra müdiri və boş olan vəzifələri tutmaq üçün:**

| | | |
|---|---|---|
| 1. | İqtisadi nəzəriyyə və xidmət sahələrinin iqtisadiyyatı | -kafedra müdiri. |
| 2. | Avtomobil texnikası | -dosent 0,5 şt. - 1 yer. |
| 3. | Metallurgiya və metalşünaslıq | -dosent - 1 yer; dosent 0,5 şt. - 1 yer. |
| 4. | Maşın və mexanizmlər nəzəriyyəsi | -dosent - 1 yer; baş müəllim - 1 yer; baş müəllim 0,5 şt. - 1 yer. |
| 5. | Texnoloji komplekslər və xüsusi texnika | -dosent - 1 yer; baş müəllim - 1 yer. |
| 6. | Ümumi və tətbiqi riyaziyyat | -dosent - 1 yer. |
| 7. | Kompüter sistemləri və şəbəkələri | -dosent - 1 yer. |
| 8. | Avtomatika və idarəetmə | -dosent - 2 yer; baş müəllim - 1 yer. |
| 9. | Xarici dillər | -dosent - 1 yer; baş müəllim - 4 yer. |
| 10. | Mühəndis qrafikası | -dosent - 1 yer. |
| 11. | Xüsusi texnologiyalar və avadanlıqlar | -professor 0,5 şt. -1 yer. |
| 12. | Biotibbi texnika | -dosent 0,5 şt. - 1 yer. |
| 13. | Elektronika | -dosent 0,5 şt. - 1 yer; baş müəllim - 1 yer. |
| 14. | Elektrodinamika və REV | -baş müəllim 0,5 şt. - 1 yer. |
| 15. | Radiotexnika və televiziya sistemləri | -assistent -1 yer. |
| 16. | Elektroenergetika və elektrik təchizatı sistemləri | -professor 0,5 şt. -1 yer. |
| 17. | Avtomobil daşımaları və YHT | -dosent - 1 yer. |
| 18. | Materiallar texnologiyası | - baş müəllim -1 yer. |
| 19. | Sənaye iqtisadiyyatı və menecment | -dosent - 1 yer, baş müəllim -1 yer. |
| 20. | Elektromexanika və elektrik avadanlığı | -dosent 0,5 şt. - 1 yer; baş müəllim - 1 yer. |
| 21. | Maşınqayırma texnologiyası | -assistent -1 yer. |
| 22. | Kimya | -professor 0,5 şt. - 1 yer; baş müəllim -1 yer. |
| 23. | Sənaye ekologiyası və HFT | -baş müəllim -1 yer. |
| 24. | Azərbaycan dili və pedaqogika | -dosent - 1 yer; dosent 0,5 şt. - 2 yer. |

Müsabiqədə iştirak etmək üçün sənədlər, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli, F-100 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" qaydalarına uyğun olaraq elan olunduğu gündən etibarən 1 ay müddətində və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" əsasnaməyə uyğun olaraq, elan olunduğu gündən başlayaraq 30 gün müddətində qəbul edilir.

**Ünvan:** *370602, Bakı şəhəri, H.Cavid pr.-25.*

**REKTORLUQ.**


**Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin direktorunun 09.10.2018-ci il tarixli, 98 nömrəli əmrinə əsasən, Sumqayıt şəhərində açıq məkanda reklamların istehsalı və yayımlanması sahəsində tənzimləmə və nəzarətin daha effektiv təşkili məqsədi ilə Sumqayıt şəhəri üzrə İnformasiya və Reklam Departamentinin fəaliyyətinə Sumqayıt Regional Reklam İdarəsinə qoşulma yolu ilə xitam verilmişdir.**

**Bununla əlaqədar fəaliyyətinə xitam verilmiş idarənin kreditorları 60 gün ərzində tələblərinin irəli sürülməsi üçün Sumqayıt Regional Reklam İdarəsinə (Sumqayıt şəhəri, Bakı küçəsi, 60, Sülh Plaza, 604) müraciət edə bilərlər.**

**Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin direktorunun 09.10.2018-ci il tarixli, 99 nömrəli əmrinə əsasən, Abşeron rayonunda açıq məkanda reklamların istehsalı və yayımlanması sahəsində tənzimləmə və nəzarətin daha effektiv təşkili məqsədi ilə Abşeron rayonu üzrə İnformasiya və Reklam Departamentinin fəaliyyətinə Sumqayıt Regional Reklam İdarəsinə qoşulma yolu ilə xitam verilmişdir.**

**Bununla əlaqədar fəaliyyətinə xitam verilmiş idarənin kreditorları 60 gün ərzində tələblərinin irəli sürülməsi üçün Sumqayıt Regional Reklam İdarəsinə ((Sumqayıt şəhəri, Bakı küçəsi, 60, Sülh Plaza, 604) müraciət edə bilərlər.**

**Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin direktorunun 09.10.2018-ci il tarixli, 100 nömrəli əmrinə əsasən, Bakı şəhərində açıq məkanda reklamların istehsalı və yayımlanması sahəsində tənzimləmə və nəzarətin daha effektiv təşkili məqsədi ilə Bakı şəhəri üzrə Reklam və İnformasiya İdarəsinin fəaliyyətinə Bakı şəhəri Reklam İdarəsinə qoşulma yolu ilə xitam verilmişdir.**

**Bununla əlaqədar fəaliyyətinə xitam verilmiş idarənin kreditorları 60 gün ərzində tələblərinin irəli sürülməsi üçün Bakı şəhəri Reklam İdarəsinə (Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 43) müraciət edə bilərlər.**

**Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin direktorunun 09.10.2018-ci il tarixli, 101 nömrəli əmrinə əsasən, Gəncə və Naftalan şəhərlərində, Goranboy, Göygöl, Daşkəsən və Samux rayonlarında açıq məkanda reklamların istehsalı və yayımlanması sahəsində tənzimləmə və nəzarətin daha effektiv təşkili məqsədi ilə Gəncə şəhəri üzrə Reklam və Xidmət İdarəsinin fəaliyyətinə Gəncə Regional Reklam İdarəsinə qoşulma yolu ilə xitam verilmişdir.**

**Bununla əlaqədar fəaliyyətinə xitam verilmiş idarənin kreditorları 60 gün ərzində tələblərinin irəli sürülməsi üçün Gəncə Regional Reklam İdarəsinə (Heydər Əliyev meydanı, Gəncə Şəhər İcra Hakimiyyəti, İnzibati bina) müraciət edə bilərlər.**

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu elan edir ki,

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun "Avtomatlaşdırılmış Baş Mühasibat Uçotu Sistemi"nin yenilənməsi ilə bağlı mal və xidmətlərin satınalınmasına dair açıq tender başa çatmış və satınalmanın qalibi olaraq "GNİ SOFTVVARE" Məhdud Məsuliyyətli Cəmiyyəti seçilmişdir. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ilə "GNİ SOFTVVARE" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 08 oktyabr 2018-ci il tarixli 0810/18 nömrəli "Avtomatlaşdırılmış Baş Mühasibat Uçotu Sistemi"nin yenilənməsi ilə bağlı mal və xidmətlərin satınalma müqaviləsi bağlanmışdır.

**Açıq Tender Komissiyası.**

## BİLDİRİŞ

Mingəçevir Şəhər İcra Hakimiyyəti 2018-ci ildə şəhərdə aparılacaq 56 (əlli altı) çoxmənzilli yaşayış binasının dam örtüyünün təmiri işlərinin layihə-smeta sənədlərinin hazırlanmasına dair kotirovka sorğusu keçirir.

Kotirovka sorğusunda iştirak etmək istəyənlər 22.10.2018-ci il saat 11:00-dək müraciət edə bilərlər.

**Əlaqə telefonu:** *024-27-5-41-95*

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin Tender Komissiyası.**

## INVITATION FOR BIDS

**Date: 11/10/2018**

1. Within the framework of the Program "Streamlining the response to the HIV epidemic through strengthening national capacities and scaling up prevention and treatment services, with an emphasis on most at risk population groups and civil society participation" the Ministry of Health of the Republic of Azerbaijan (hereinafter - The Ministry of Health) invites sealed bids from qualified Bidders for delivery of "Printing materials".
2. Further additional information and documentation (standard bidding documents) can be obtained from PIU, Ministry of Health, 3, Aliyarbayov Street, Baku, Azerbaijan; Tel.: +994 12 498 20 01; E-mail hiv-tender@gfatm.az. The contract number for the grant from the Global Fund under which these goods will be procured is AZE-H-MOH-1674.
3. All bids shall be delivered to the above address at or before 16.00 p.m. Baku time on 25/10/2018. Late bids shall be rejected and returned unopened.
4. The Bids will opened in the presence of the Bidders' representative who choose to attend the Ministry of Health, 3, Aliyarbayov str., Baku, Azerbaijan on 25/10/2018 at 17.00 p.m. Baku time.

**Tender Committee.**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Mühəndislik Universiteti PHŞ,

Cari təmir işlərinin kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +99412 3499966/67 (daxili nömrə: 1403) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22 oktyabr 2018-ci il 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Həsən Əliyev küçəsi 120, AZ0102, Xırdalan şəhəri, Abşeron rayonu, Azərbaycan.*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi bildirir ki, 19 sentyabr 2018-ci il tarixdə LOT-1 "Dəftərxana və təsərrüfat xərcləri"nin satınalınması üzrə keçirilmiş açıq tenderdə "Vektor Qrup" MMC, LOT-4 "İdarənin xərcləri", LOT-5 "Avadanlığın alınması", LOT-6 "Digər maşın və avadanlıqlar"ın satınalınması üzrə keçirilmiş açıq tenderdə isə "İNPEKS.N" MMC qalib elan olunmuş və həmin şirkətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 14.09.2018-ci il tarixdə keçirilmiş "Bakmil" stansiyasında yanğın siqnalizasiyasının quraşdırılması işlərinin "Kotirovka Sorğusu" üsulu ilə satın alınmasına dair müsabiqədə **"GSS .AZ" MMC** qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 05.10.2018-ci il tarixdə ƏDV daxil 43 431,08 manat (qırx üç min dörd yüz otuz bir manat, 08 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

Şirvan Şəhər Yaşıllaşdırma İdarəsi əkin materiallarının satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir.
**Əlaqə telefonu:** *215 59 92.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Bildiririk ki, "Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən 12.05.2018-ci ildə və 27.05.2018-ci ildə "Respublika" qəzetində, 14.05.2018-ci ildə və 29.05.2018-ci ildə "tender.gov.az" internet səhifəsində dərc edilmiş "Beyləqan, Ağcabədi, Saatlı, Bərdə, Sabirabad və Biləsuvar pambıq istehsalı və emalı məntəqələrində ümumilikdə 48 ədəd taya yerlərinin tikintisi işlərinin satınalınması" barədə verilmiş tender elanı üzrə 06.07.2018-ci ildə keçirilmiş açıq tender prosedurunda "Şahbulaq, Kommersiya, İnşaat və Ticarət" MMC qalib gəlmişdir.

Qalib şirkətlə satınalma müqaviləsi bağlanmışdır. Bağlanmış müqavilənin dəyəri 256 913.69 AZN təşkil etmişdir.

**"ASK" ASC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

Bildiririk ki, "Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən 18.04.2018-ci ildə, 18.05.2018-ci ildə və 22.05.2018-ci ildə "Respublika" qəzetində, 18.04.2018-ci ildə və 18.05.2018-ci ildə "tender.gov.az" internet səhifəsində dərc edilmiş "Azərbaycan Sənaye Korporasiyası" şüşə zavodunun 1-ci soba sexi üçün "hazır məhsul anbarı"nda tikinti-quraşdırma işlərinin satınalınması" barədə verilmiş tender elanı üzrə 21.06.2018-ci ildə keçirilmiş açıq tender prosedurunda "Azərtranss" MMC qalib gəlmişdir.

Qalib şirkətlə satınalma müqaviləsi bağlanmışdır. Bağlanmış müqavilənin dəyəri 810 935.09 AZN təşkil etmişdir.

**"ASK" ASC-nin Tender Komissiyası.**

Babayev Rafiq Müzəffər oğluna Bakı şəhəri Bağlar Təsərrüfatı İdarəsi tərəfindən verilmiş Çil Şüvəlan qəsəbəsindəki 55 nömrəli bağa dair sənəd itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Məmmədova Nigar Vüqar qızına verilmiş 02/10507 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Mehralıyev Vüsal Etibar oğluna verilmiş 16/200037 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 27 mart 1998-ci il tarixli 5 nömrəli qərarı ilə Bala Şürük kənd sakini Babayev Əlləddin Tahir oğluna verilmiş Torpağa mülkiyyət hüquqna dair Dövlət Aktı (JN 0070; KOD 80206028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bəliton kənd sakini Ağayev Tərlan Yahya oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0074; KOD 80211028) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 10 yanvar 1998-ci il tarixli 3 nömrəli qərarı ilə Pəlikəş kənd kənd sakini Baxşıyev Orucəli Qeybi oğluna verilmişTorpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 316; KOD 80105018) itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon aqrar islahat komissiyasının 31 avqust 1998-ci il tarixli 14/2 nömrəli qərarı ilə Peştəsər kənd sakini Bəşirova Gülzadə Şahverdi qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0036; KOD 80416018) itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 539-cu məhəllə 18/7 ünvanında yerləşən, Ağayev Nizami Vidadi oğluna məxsus 32 saylı mağazanın texniki pasportu (N 001845) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 12 oktyabr 2017-ci il tarixdə Topçu bələdiyyəsinə 0,0187 ha. torpaq sahəsinə mülkiyyət hüququna dair verilmiş, (03 fevral 2018-ci ildə Daşınmaz əmlakın AN - I № 0675320 saylı Alqı-satqı müqaviləsi əsasında Topçu kənd sakini Muştaqov İlham İbrahim oğluna satılmış) reyestr nömrəsi 407012001133 olan Torpaq sahəsinin planı və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Təhlükəli Tullantılar" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1:** Toyota Land Cruiser 200 markalı avtomobilin satınalınması.

İddiaçılara təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlı zərfdə yazılı surətdə təqdim etsinlər.

İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təklifləri bal sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Təkliflərin qiymətləndrilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, qrafikə uyğun malların (işlərin və xidmətlərin) təhvil verilməsi.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edilə bilər. Əlaqələndirici şəxs: Nəsib Orucov, tel.: (012) 539 18 10, ünvan: Sumqayıt şəhəri, Bakı-Quba şosesinin 33-cü km

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Tenderin əsas şərtlər toplusunu almaq istəyənlər 200 (iki yüz) manat iştirak haqqı köçürdükdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*H/H:AZN AZ74AİİB38060019440421996125*
*VÖEN: 1700084531*
*Bank: "Kapital Bank"ın Sumqayıt filialı*
*Kod: 200253*
*Bank VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. Bik: AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 16 noyabr 2018-ci il saat 17:00 tarixə qədər aşağıdakı sənədləri (tender təklifi və təklifin 1% bank zəmanəti istisna olmaqla) təqdim etməlidirlər:

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və DSMF-dən arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri (iddiaçının hüquqi sənədlərinin surəti notarial qaydada təsdiqli olmalıdır);*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) və ümumi təklifin 1%-i həcmində tender təklifinin təminatını - bank zəmanətini (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır) 26 noyabr 2018-ci il saat 17:00-a qədər iki nüsxədən ibarət (əsli və surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Sumqayıt şəhəri, Bakı-Quba şosesinin 33-cü km ünvanında yerləşən tender komissiyasına təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Sumqayıt şəhəri, Bakı-Quba şosesinin 33-cü km ünvanında yerləşən "Təhlükəli Tullantılar" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasında 27 noyabr 2018-ci il tarixdə saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndəsi etibarnamə əsasında tenderdə iştirak edə bilər.

**Tender Komissiyası.**

## SPECIFIC PROCUREMENT NOTICE

**Date: October 11, 2018**
**Financing No: AZ-034, 035, 036**
**IFB No: RIDS-W-3-A**

1. The Government of Azerbaijan has received a financing from the Islamic Development Bank (ISDB) in various currencies towards the cost of the Integrated Rural Development Project. It is intended that part of the proceeds of this loan will be applied to eligible payments under the contract for Construction Works on Rehabilitation of Irrigation and Drainage Networks in Yevlakh district.
2. The State Service for Management of Agricultural Projects and Credits under the Ministry of Agriculture (SSMAPC) now invites sealed bids from bidders for the construction and completion of Construction Works on "Irrigation of 4000 hectares of land in Aran settlement of the Aydinliq WUA of Yevlakh Region", ("the Works").
3. Bidders may obtain further information from and inspect the bidding documents at the office of the State Service for Management of Agricultural Projects and Credits under the Ministry of Agriculture.

**40, U.Hajibayov Street, Government House, 8th floor, room 803,**
**Baku city, Azerbaijan**
**Tel.: +994 12 493 31 70**
**E-mail: vugar.mehdiyev@gmail.com; yegana.acip@gmail.com**

4. A complete set of bidding documents may be purchased by interested bidders on the submission of a written application to the above address both online and in hard copy and upon payment of a non-refundable fee of AZN 300 (three hundred Azerbaijan Manat) or an equivalent in a freely convertible currency to the following account:

Beneficiary: The State Service on Management of Agricultural Projects and Credits under the Ministry of Agriculture of the Republic of Azerbaijan / Integrated Rural Development Project
Beneficiary's Tax ID: 1700428481
Beneficiary's Account in AZN: AZ28AIIB33030039443503744105
Beneficiary's bank: Kapital Bank OJSC, Sabail Branch no 1
S.W.I.F.T: AIIBAZ2X
Bank Code: 200059
Bank's Tax Code: 9900003611
Corr. acc: AZ37NABZ01350100000000001944

5. Bids must be delivered to the above office on or before 11:00AM on November 27, 2018 and must be accompanied by a bid security of 210,000 Azerbaijan manats.
6. Bids will be opened in the presence of bidders' representatives who choose to attend at 11:10AM November 27, 2018 at the office of the State Service for Management of Agricultural Projects and Credits under the Ministry of Agriculture (SSMAPC), 40, U. Hajibayov Street, Government House, 8th floor, room 817, Baku city, Azerbaijan.

## LƏNKƏRAN ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Lənkəran şəhərində 11 ədəd çoxmənzilli binanın dam örtüyünün təmiri işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ş.Axundov küçəsi 33 (Əlaqələndirici şəxs: Rövşən İsgəndərli, telefon: (025) 255-30-73) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**Lot 1 - 150 manat**

*Hesab: AZ54CTRE00000000000002512031*
*Fond 7Y Büdcə səviyyəsinin kodu: 142340*
*VÖEN: 2600029891*
*Bank: DXA*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: BİK CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər: İddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumatı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 noyabr 2018-ci il saat 17:00 tarixinə qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26 noyabr 2018-ci il saat 17:00-a qədər** Lənkəran şəhəri, Ş.Axundov küçəsi 33 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 noyabr 2018-ci il saat 12:00 tarixində** Lənkəran şəhəri, Ş.Axundov küçəsi 33 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## FÜZULİ RAYON KOMMUNAL MÜƏSSİSƏLƏRİ KOMBİNATI 2018-ci İL ÜÇÜN

## AÇIQ TENDER ELAN EDİR

**LOT-1.** Horadiz şəhər H.Əliyev prospektində arko divarların və yeni avtovağzal kompleksinin qarşısında istinad divarının, gül yerlərinin tikilməsi

**LOT-2.** Mal-materialların və avadanlıqların alınması

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Füzuli Rayon Kommunal Müəssisələri Kombinatından (Əlaqələndirici şəxs: Qurbanov Teymur Fazil oğlu, tel.: 050-633-59-49) ala bilərlər.

**LOT-1 - 80 (səksən) manat**
**LOT-2 - 80 (səksən) manat**

*Füzuli Rayon Kommunal Müəssisələri Kombinatı*
*VÖEN: 7500120611*
*H/H: AZ04AİİB33010019448700206187*
*Adı: "Kapital Bank"ın Füzuli filialı*
*Kodu: 200877*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. :AİİBAZ2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən 60 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar (arayışların əslləri və tarixləri tender elanından sonra olmalıdır);*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- İş qrafiki*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 noyabr 2018-ci il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 noyabr 2018-ci il saat 17:00-a qədər Füzuli Rayon Kommunal Müəssisələri Kombinatına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 noyabr 2018-ci il saat 12:00 tarixində Füzuli Rayon Kommunal Müəssisələri Kombinatı ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## ALLAH RƏHMƏT ELƏSİN

**BDU-nun Tətbiqi-Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru akademik Fikrət Əliyev və institutun kollektivi ADPU-nun professoru Arif Bünyadova, əzizi ŞAMİL BÜNYADOVUN vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Cəmiyyətin əməkdaşı Rahib Osmanova, əzizi GÜLƏNDAM xanımın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova və institutun kollektivi görkəmli alim, biologiya elmləri doktoru, professor QARA TEYFUR oğlu MUSTAFAYEVİN vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova, atası MƏHƏMMƏDƏLİ ƏLƏKBƏROVUN vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**






● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Ataş CƏBRAYILOV**

● **Çapa imzalanmışdır**
**10.10.2018**